Günəş Şərqdən doğur!

№ 194 (5715), 2022-ci il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 25 oktyabr 2022-ci il (çərşənbə axşamı)





## Fransa Senatında Azərbaycana qarşı qətnaməyə etiraz olaraq petisiya hazırlanıb

**Fransa Senatında Azərbaycana qarşı hazırlanan qətnaməyə etiraz olaraq petisiya başladılıb.**

Etiraz petisiyasına qoşulmaq üçün video-təlimat hazırlanıb.

(Səh.5)

## Sumqayıtda iki mağara aşkar edilib



**"Stansiya Sumqayıt" deyilən ərazidə yeni mağaralar aşkar edilib.**

Bu barədə APA-ya Mədəniyyət Nazirliyi yanında Mədəni İrisin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətindən bildirilib.

*Qeyd olunub ki, kəşfiyyat axtarış işləri Dövlət Xidmətinin Şabran Regional İdarəsi tərəfindən davam etdirilir.*

# Hədəflər açıqlandı

## Azərbaycan və Gürcüstan bir cəbhədən hərəkət edərək bir nöqtəyə vuraraq milli maraqlarını təmin edəcək



**"Səfərim Azərbaycan-Gürcüstan dostluq və qardaşlıq münasibətlərinə yeni təkan verəcək". Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə mətbuata birgə bəyanatında bildirib. Dövlət başçısı İrakli Qaribaşvilinin Azərbaycana bir neçə dəfə səfər etdiyini xatırladıb. Prezident qeyd edib ki, bugünkü səfər Azərbaycan-Gürcüstan dostluq və qardaşlıq münasibətlərinə yeni təkan verəcək.**

(Səh.2)



## Azərbaycan Rusiyaya etiraz notası verib

### Sənəddə Birinci Kanalda səslənən açıq-aşkar antiazərbaycan çıxışlar pislənilib

Azərbaycanın səfirliyi Rusiya Xarici İşlər Nazirliyinə 2022-ci il oktyabrın 20-21-də Rusiyanın Birinci Kanalında yayımlanan "Böyük oyun" verilişinin efirində rusiyalı politoloqlar və erməni əsilli ekspertlər tərəfindən səsləndirilmiş açıq-aşkar antiazərbaycan çıxışları, Azərbaycan Respublikasının ərazi bütövlüyünün şübhə altına alınması və dövlət xəritəsinin təhrif edilməsi ilə əlaqədar rəsmi sərt etiraz notası göndərib.

Bu barədə "Şərq"ə Azərbaycanın Rusiyadakı səfirliyindən məlumat verilib.

(Səh.8)




## İclas Brüsseldə keçiriləcək

### Sərhədin delimitasiyası komissiyaları noyabrda toplaşacaq

**Azərbaycan və Ermənistan arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə dövlət komissiyalarının üçüncü iclası noyabrın birinci həftəsində Brüsseldə keçiriləcək.**

Bu barədə Ermənistan KİV məlumat yayıb.

Bununla bağlı təfərrüat isə hələ ki məlum deyil.

Qeyd edək ki, komissiyaların sonuncu iclası bu il avqustun 30-da Moskvada keçirilmişdi.

# Partiyaların minimum 10 min üzvü olmalıdır

## 47 siyasi partiyadan 250-yə qədər təklif gəlib



**Milli Məclisdə "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin ictimai müzakirəsi keçirilib.**

Müzakirələrdə parlamentdə təmsil olunan və parlamentdən kənar siyasi partiyaların nümayəndələri iştirak edib. İclasdan əvvəl Milli Məclisin sədri Sahibə Qafarova partiya sədrləri ilə görüşüb. Vitse-spiker, Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Fəzail İbrahimli yeni qanun layihəsinin hazırlanmasını vacib edən amillərdən danışıb.

(səh.4)

## Türkiyə Azərbaycana pilotsuz zirehli maşınlar ixrac edə bilər



**Türkiyənin HAVELSAN şirkəti Azərbaycana pilotsuz zirehli maşın ixrac edə bilər.**

Türkiyə KİV-lərinin məlumatına görə, bunu dünən şirkətin İdarə heyətinin sədri Hacı Əli Mantar deyib.

Onun sözlərinə görə, "Barkan" maşınlarının tədarükü ilə bağlı Azərbaycan, Ukrayna və Pakistanla müqavilələr imzalanıb. Bundan başqa sıra digər ölkələrlə, xüsusilə Malayziya, İndoneziya və Qətərlə danışıqlar aparılır.

Şirkət rəhbəri əlavə edib ki, "Barkan" pilotsuz zierhli maşınları hazırda yalnız Türkiyə Silahlı Qüvvələrində istifadə olunur.

## Cəlilabadda əsgər intihar edib

### Naxçıvanda da hərbçi avtomatdan açılmış atəş nəticəsində həlak olub

**Cəlilabadda əsgərin intiharı faktı araşdırılır.**

Bu barədə Baş Prokurorluğun mətbuat xidmətindən bildirilib.

Qeyd olunub ki, 2003-cü il təvəllüdlü əsgər Murad Şahbazovun oktyabrın 23-də yaşadığı Cəlilabad rayonu, Günəşli kəndində özünü asaraq intihar etməsi faktı ilə bağlı Cəlilabad rayon prokurorluğunda araşdırma aparılır.

(səh.6)



## Zəngəzur dəhlizi açılmalı, sülh sazişi imzalanmalıdır

### Azərbaycan, Ermənistan, Rusiya prezidentlərinin görüşündə dönüş gözlənilir

(səh.3)



## Rusiya mətbuatı sifarişli məqalələr çap edir

### Fuad Abbasov: "Komsomolskaya pravda"da gedən yazı böyük ehtimalla Ara Abramyan tərəfindən təlimatla yazılıb"

(səh.7)

ŞƏRQ
Müstəqil ictimai-siyasi qəzet
25 oktyabr 2022-ci il (çərşənbə axşamı)






# Hədəflər açıqlandı

## Azərbaycan və Gürcüstan bir cəbhədən hərəkət edərək bir nöqtəyə vuraraq milli maraqlarını təmin edəcək

**"Səfərim Azərbaycan-Gürcüstan dostluq və qardaşlıq münasibətlərinə yeni təkan verəcək". Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə mətbuata birgə bəyanatında bildirib. Dövlət başçısı İrakli Qaribaşvilinin Azərbaycana bir neçə dəfə səfər etdiyini xatırladıb. Prezident qeyd edib ki, bugünkü səfər Azərbaycan-Gürcüstan dostluq və qardaşlıq münasibətlərinə yeni təkan verəcək. Ölkə rəhbəri bəyan edib ki, Azərbaycan çalışır ki, dünya bazarlarına öz elektrik enerjisini ixrac etsin:**

"Əlbəttə ki, təbii bizim ixrac istiqamətimiz Gürcüstandan keçir. Təkcə azad edilmiş torpaqlarda 10 giqavat gücündə bərpa olunan enerji növlərindən istifadə etmək olar. Xəzər dənizində isə bu rəqəm 157 giqavata çatır. Bu, yəni beynəlxalq ekspertlər tərəfindən təsbit edilmiş rəqəmdir və bu, çox böyük rəqəmdir. Əlbəttə ki, bu enerjini istehsal etmək və bunu ixrac etmək bizim növbəti illərdəki vəzifəmizdir və burada Gürcüstanla Azərbaycan necə ki digər sahələrdə, bu sahədə də fəal əməkdaşlıq edəcək".

**"Bakı-Tbilisi-Ceyhan neft kəməri xətti ilə gələn il ixrac artırılacaq"**

Prezident vurğulayıb ki, Bakı-Tbilisi-Ceyhan neft kəməri xətti ilə gələn il ixrac artırılacaq: "Biz bununla bərabər, hazırda istismarda olmayan Bakı-Supsa neft kəmərindən də istifadə etmək istəyirik. Bu barədə də danışmışıq. Mən bizim planlarımız haqqında cənab baş naziri məlumatlandırdım. Buna da böyük ehtiyac var və böyük potensial var".

**"2027-ci ildə Azərbaycanın təkcə Avropaya qaz ixracatı 20 milyard kub metrə çatacaq"**

Dövlət başçısı deyib ki, 2027-ci ildə Azərbaycanın təkcə Avropaya qaz ixracatı 20 milyard kub metrə çatacaq: "Əlbəttə, biz bu gün gələcək enerji siyasətimizlə bağlı geniş fikir mübadiləsi apardıq. Baş nazirin də qeyd etdiyi kimi, həyata keçirilmiş layihələr artıq uğurla fəaliyyətdədir və biz yeni layihələr haqqında düşünürük. Biz qaz ixracatını dünya bazarlarına artırmaq fikrindəyik. Bu il 22 milyard kub metr ixracımız olacaq, gələn il daha da artacaq. Bu ilin iyul ayında Avropa Komissiyası ilə Azərbaycan arasında imzalanmış enerji sahəsində strateji tərəfdaşlığa dair memorandumda göstərilir ki, növbəti 5 ildə Azərbaycan Avropaya qaz ixracatını iki dəfə artıracaq. Yəni bizim niyyətimiz bundan ibarətdir, imkanlarımız da buna çatır. Və beləliklə, biz planlaşdırırıq ki, 2027-ci ildə Azərbaycanın təkcə Avropaya qaz ixracatı 20 milyard kub metrə çatacaq. Və əlbəttə ki, bununla əlaqədar ikitərəfli formatda görüləcək işlər həm müzakirə olundu, həm gələcək müzakirələrə də ehtiyac var".

**"Gürcüstanla strateji tərəfdaşlıq əlaqələrimiz müttəfiqlik səviyyəsinə yüksəlib"**

Azərbaycan Prezidenti bildirib ki, Gürcüstanla strateji tərəfdaşlıq əlaqələrimiz müttəfiqlik səviyyəsinə yüksəlib, bir çox sahələr üzrə biz fəal əməkdaşlıq edirik. Dövlət başçısı beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan və Gürcüstanın bir-birini daim dəstəklədiyini qeyd edərək deyib ki, eyni zamanda, ikitərəfli formatda həyata keçirilən bir çox önəmli layihələr təkcə ölkələrimiz üçün deyil, bölgə üçün, bütün Avropa üçün xüsusi əhəmiyyət daşıyır". Prezident bildirib ki, bu ilin 9 ayında qarşılıqlı ticarət dövriyyəsi 1 milyard dollara yaxınlaşır: "Əlbəttə ki, Azərbaycanın sərmayəsi ilə həyata keçirilən layihələr bizim əməkdaşlığımızı daha da gücləndirir. Azərbaycan Gürcüstana 3 milyard dollardan çox sərmayə qoyub. Və bu sərmayə qarşılıqlı faydalı sərmayədir. Çünki hər iki tərəfin maraqlarına cavab verir".

Dövlət başçısı Ermənistanın siyasi iradə göstərərək Azərbaycanla sülh müqaviləsini imzalayacağına ümid etdiyini deyib: "Əgər belə olarsa, Cənubi Qafqaza sülh gələcək. Və eyni zamanda, əməkdaşlıq üçün imkanlar yaranacaq".

**"Azərbaycan-Gürcüstan əlaqələri bölgə, Avropa və dünya üçün əhəmiyyətlidir"**

Prezident qeyd edib ki, Azərbaycan-Gürcüstan əlaqələri bölgə, Avropa və dünya üçün əhəmiyyətlidir: "Hazırda enerji resurslarına dünyada və Avropada böyük tələbat olduğu üçün Gürcüstanla Azərbaycan bax bu məsələdə bir cəbhədən hərəkət edərək bir nöqtəyə vuraraq öz milli maraqlarını təmin edəcək. Baxın görün, iki qardaş ölkə arasındakı əlaqələr bölgə üçün, Avropa üçün və dünya üçün nə qədər əhəmiyyətlidir. Və yenə də demək istəyirəm ki, bütün bu uğurların təməlində bizim dostluğumuz durur, xalqlarımızın dostluğu, liderlərimizin dostluğu və birgə fəaliyyət. Ona görə mən bir daha bu gözəl fürsətə görə, məni bu gözəl yerə dəvət etdiyi üçün hörmətli baş nazirə təşəkkürümü bildirmək istəyirəm. Dost, qardaş gürcü xalqına daim firavanlıq, rifah və sülh arzulayıram".

**"Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ötürmə qabiliyyətini 25 milyon tona qədər çatdırmaq istəyirik"**

Dövlət başçısı vurğulayıb ki, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ötürmə qabiliyyətini 25 milyon tona qədər çatdırmaq istəyirik: "Mən bildirməliyəm ki, biz Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ötürmə qabiliyyətini 15 milyon tondan 25 milyon tona qədər çatdırmaq istəyirik. Artıq bütün göstərişlər verildi və vəsait də ayrılacaq. Ona görə də nəqliyyat sahəsində Gürcüstanla Azərbaycan arasında sıx koordinasiya aparılmalıdır. Çünki bizim birgə layihələrimiz eyni vaxtda tamamlanmalıdır. Tranzit ölkə olmaq üçün mütləq qonşularla yaxşı münasibətlərin olmalıdır. Çünki qonşularla bu münasibətlər olmadan heç bir ölkə etibarlı tranzit ölkəyə çevrilə bilməz. Bizim isə Gürcüstanla dostluq, qardaşlıq, tərəfdaşlıq münasibətlərimiz bu imkanları yaradır".



**"Bakı-Tbilisi-Qarsın ötürmə qabiliyyətini 5 milyon tona çatdırmaq fikrindəyik"**

Ölkə başçısı diqqətə çatdırıb ki, bölgəmizin iqtisadi potensialını artırmaq üçün çox gözəl imkanlar var: "Enerji resursları, nəqliyyat dəhlizləri. Onu da bildirməliyəm ki, Gürcüstanla Azərbaycan arasında yükdaşımaların həcmi bu il 75 faiz artıb. Mən bildirmək istəyirəm ki, Bakı-Tbilisi-Qars dəmir yolunun ötürmə qabiliyyətini biz 5 milyon tona çatdırmaq fikrindəyik. Bu məqsədlə bu il və gələn il bu layihəyə Azərbaycan tərəfindən əlavə sərmayə qoyulacaq. Artıq bütün sərmayələr hazırdır və bu prosesə start vermişik. Çünki dünyada Xəzər üzərindən Azərbaycan, Gürcüstan və qonşu ölkələrdən keçən nəqliyyat yollarına böyük ehtiyac var. Həm geosiyasi vəziyyətlə bağlı, həm bütövlükdə yeni nəqliyyat yolları bütün yol boyunca yerləşən ölkələrin maraqlarına cavab verir. Ona görə Bakı-Tbilisi-Qars dəmir yolunun ötürmə qabiliyyətinin 5 milyon tona çatdırılması, eyni zamanda, Gürcüstan limanlarından istifadə edərək Orta Asiyadan, bütövlükdə Asiyadan Qərb istiqamətinə və əks istiqamətə ötürülən yüklərin həcminin artırılması artıq yeni reallıq yaradır və biz buna hazır olmalıyıq".

**Gürcüstanın baş naziri Heydər Əliyevdən sitat gətirdi**

Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ümummilli lider Heydər Əliyevdən bir sitat gətirib: "Bizim onun xatirəsinə dərin ehtiramımız var. O, Gürcüstanda, Tbilisidə olanda, vaxtilə demişdi ki, Azərbaycan və gürcü xalqları xoşbəxtdirlər ki, onlar qonşu xalqlardır". O qeyd edib ki, bizim əcdadlarımız həmin təmasları yaradıb və bu gün də bizim vəzifəmiz odur ki, həmin əməkdaşlığı irəli aparaq və gələcək nəsillərə ötürək.

**"Azərbaycan və Gürcüstanın birgə layihələri tarixi layihələrdir"**

Baş nazir deyib ki, Gürcüstan Azərbaycan üçün önəmli ölkədir. Eyni zamanda, Azərbaycan da Gürcüstanın strateji tərəfdaşıdır: "Bizim həyata keçirdiyimiz layihələr - Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri, Orta Dəhliz tarixi layihələrdir: "Bu birgə layihələr bundan sonra da davam edəcək və daha da sürətləndiriləcək".

Gürcüstanın baş naziri Cənubi Qafqazda əməkdaşlıq formatının yaranmasına tərəfdardır: "Biz bu gün dünyada baş verən hadisələri, regional vəziyyəti, həmçinin Azərbaycan və Ermənistan arasında sülh prosesini nəzərdən keçirdik. Şəxsən mən və bizim hökumətimiz sülh siyasəti yürütmək üçün əlimizdən gələni edəcəyik. Regionda mehriban qonşuluq əlaqələri heç bir əməkdaşlıq formatına zidd deyil, bunu yalnız gücləndirəcəyik və əminəm ki, biz bir yerdə çox iş görə bilərik". Azərbaycan Prezidentinin Praqada irəli sürdüyü təşəbbüsü dəstəkləyən baş nazir Cənubi Qafqazda əməkdaşlıq formatının yaranmasına tərəfdar olduğunu bildirib.

**"Prezident İlham Əliyevin Azərbaycan-Gürcüstan əməkdaşlığına töhfəsi böyükdür"**

Qaribaşvili deyib ki, Gürcüstanla Azərbaycan arasında misilsiz dostluq və sıx münasibətlər var: "Həmin münasibətlər tarixi əlaqələrimizə, qarşılıqlı hörmətə söykənir. Əminəm ki, hazırkı əməkdaşlığımız ölkələrimizin və xalqlarımızın rifahı naminə daha yüksək səviyyəyə qalxacaq". Prezident İlham Əliyevin Azərbaycanın və Gürcüstanın bu qədər yaxın olmasına böyük töhfə verdiyini qeyd edən İrakli Qaribaşvili bugünkü söhbətdə ölkələrimiz arasında sıx tərəfdaşlığın bir daha vurğulandığını söyləyib.

**İsmayıl**

# Zaman yetişib

## Azərbaycanla Gürcüstanın strateji tərəfdaşlığı müttəfiqlik səviyyəsinə daşınmalıdır



**Azərbaycan Prezidenti İlham Əliyev dünən Gürcüstana işgüzar səfər edib. Dövlət başçısı ilə Gürcüstanın Baş naziri İrakli Qaribaşvili arasında təkbətək görüş keçirilib. Liderlər Azərbaycan-Gürcüstan arasında ikili əlaqələri və regional bir çox məsələni müzakirə ediblər. Azərbaycan Prezidenti Qaribaşvilini Ermənistanla sülh danışıqlarına dair məlumatlandırıb.**

Qeyd olunub ki, Qarabağ münaqişəsi başa çatdıqdan sonra Ermənistana 5 əsas prinsipdən ibarət təklifləri təqdim edib. Səfər çərçivəsində Mçxeta rayonundakı Muxrani sarayında "Qarabağ xanlığının irsi" sərgisi ilə tanışlıq da baş tutub. Daha sonra liderlər mətbuata bəyanatlarla çıxış ediblər. Ekspertlərin fikrincə, prezidentin Gürcüstana səfəri son hadisələr fonunda diqqət çəkir. Məsələ ondadır ki, İran Zəngəzur dəhlizinin açılmaması istiqamətində əlindən gələni edir. İranın Zəngəzurla bağlı bir müddətdir dilə gətirdiyi "sərhədlər dəyişəcəksə, hərbi müdaxilə edəcəyik" təhdidi, Azərbaycanla sərhəddə, Araz çayı boyunca "Qüdrətli İran" adlandırdığı təlimlərə başlaması, Qafanda konsulluğun binasını açmaq da bunu təsdiqləyir. Son olaraq Zəngəzur dəhlizinə alternativ "İran-Ermənistan-Hindistan" yolunun çəkilməsinə dair müzakirələr Bakını konkret addımlar atmağa vadar edir. Tehran və İrəvan Zəngəzur dəhlizinin açılmasına mane olmaq istəyir. Bu istiqamətdə Hindistanla təmaslar qurulub. Azərbaycan üçün Zəngəzur dəhlizinin açılması hazırda başlıca prioritetdir. Bundan başqa dəhlizin açılmasında böyük güclərin də maraqları var.

**Siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə bildirib ki, Rusiya-Ukrayna müharibəsinin davam etməsi postsovet məkanının başı üzərindəki təhdidlərin bir parçasını ərazi münaqişəsindən əziyyət çəkən Gürcüstana fokuslayır.** Analitikə görə, Gürcüstanda davam edən konfliktlər bu ölkəni Rusiyanın manipulyasiyası və təzyiqləri qarşısında aciz qoyur: "Gürcüstandakı erməni faktorunun alışan çəllək həddinə çatması mümkündür ki, bu da Azərbaycan üçün qeyri-məqbul senaridir. İran Gürcüstanda azərbaycanlıların kompakt yaşadığı bölgələri ideoloji axınla "zəhərləmək" niyyətini işə salıb ki, bu da Bakını narahat edən faktorlar siyahısında yer alır. Azərbaycanla Gürcüstanın strateji tərəfdaşlığının müttəfiqlik zamininə çatması üçün zaman yetişib. Tbilisi Azərbaycan-Ermənistan münasibətlərinin tənzimlənməsi prosesində vasitəçilik niyyətindədir. Lakin bu, Gürcüstanın şəxsi təşəbbüsü yox, Qərbin onun qarşısında qoyduğu tələmatlar "kitabçasının" ruhundan irəli gəlir. Gürcüstan Rusiya və Qərblə münasibətlər sistemində balanslı akta ehtiyac hiss edir. Tbilisi bunun üçün yaxşı nümunəyə, yəni Azərbaycanın xarici siyasət modelinə müraciət edir və Əliyevin qənaətlərini öyrənir. Rusiyanın da, Qərbin də Tbilisi üzərində əhəmiyyətli təsir rıçaqlarını saxlamaq üçün kəsişən maraqları Azərbaycan və Türkiyənin Kreml-Gürcüstan əlaqələrinin normallaşmasında birgə tarazlaşdırıcı mövqe tərtib etməsinə rəvac verir. Azərbaycan və Türkiyə Gürcüstana Rusiyadan artan təzyiqlərin azaldılması və Tbilisinin təhlükəsizlik çətiri altında saxlanılması üçün səylərini əsirgəmirlər.

Bunun səbəbi Gürcüstan Azərbaycanla Türkiyə arasındakı enerji və Bakı-Tbilisi-Qars dəmir yolu arteriyasını təmin edən tranzit ölkə olmasıdır. Gürcüstanda yaşayan azərbaycanlılar amili Bakı və Ankara üçün bu ölkəyə münasibətdə etnik müstəvi üzrə vahid proqram hazırlamaq prioritetlərini təqdim edir".

> "Gürcüstanın cari xarici siyasət kursunu ölçülmüş duruş izləyir, lakin regional təhlükəsizlikdəki dayandığı nöqtənin bərkidilməsi üçün əlavə tədbirlərə ehtiyac var"

**Ekspert vurğulayıb ki, Gürcüstandakı erməni amili Rusiyanın etnik münaqişələr senarisinin icrası üzrə təhlükəli kartdır:** "Düzdür, Rusiya Azərbaycan-Ermənistan münasibətlərinə nisbətdə etnik erməni kartına olan simpatiyasını hiddətlə əvəzləyib. Hazırda Moskva Bakı ilə əməkdaşlığı daha üstün tutaraq İrəvanı təcriddə boğur. Bununla belə, etnik mövzular Rusiya dövlət siyasətinin mahiyyətindən uzaqlaşmayıb. İndi ən həssas regionlardan biri də məhz Gürcüstandır. Erməni kartının aktivləşməsi Cənubi Qafqaz regionu üçün əlavə problemlər yaradan zəncirin bir həlqəsinə çevrilə bilər. Lakin dövlət başçısı İlham Əliyev bunun qarşısını almaqdan ötrü Tbilisi ilə sıxlaşan dialoqların konkret nəticələr bərqərar etməsinə üstünlük verməkdədir.

Digər yandan Azərbaycan həm öz təşəbbüsləri, həm də Türk Dövlətləri Təşkilatının prinsiplərindən irəli gələrək dünya üzrə səpələnən azərbaycanlıların hüquqlarının müdafiəsini öz siyasətinin mərkəzinə proyeksiya edir. Bu mənada, İranın Gürcüstandakı azərbaycanlıların potensialından öz xeyrinə yararlanmaq cəhdlərinin arxasında yaxşı niyyətlər durmadığını həm Bakı, həm də Ankara gözəl bilir. Azərbaycanla Gürcüstan arasında ikitərəfli münasibətlər qrafikində həllini gözləyən çağırışlar dayanmaqdadır. Ona görə də ölkə rəhbəri regionda təhdidlərin çoxalması fonunda qonşu və strateji tərəfdaş Gürcüstanla həmin gündəliyi gündəmə gətirir".

**A.Kərimova görə, ən böyük hədəflərdən biri Bakı-Tbilisi strateji tərəfdaşlığını Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli müttəfiqlik səviyyəsinə çatdıracaq fikirlərin inkişaf etdirilib nəticə hasil edilməsidir:** "Tbilisi reallaşması planlaşdırılan Zəngəzur dəhlizinə qoşulmaq qərarını açıqlamaqla Azərbaycan-Türkiyə-Gürcüstan damarına töhfə verə bilər. Qərb, xüsusilə də ABŞ Gürcüstanın Azərbaycan-Ermənistan gündəliyindəki moderatorluq roluna sahiblənməsində maraqlıdır. Vaşinqton bəzi oyun qaydalarında özünü göstərmək meylindən uzaqdır və pərdə arxasından qurulan tamaşaya rejissorluq etmək qabiliyyətlərinə malikdir.

Bu mənada ABŞ Gürcüstan vasitəsilə Azərbaycan-Ermənistan münasibətlərinin nizamlanmasında maraqlarını təmin etmək və Moskvanı prosesdə neytrallaşdırmaq məqsədlərini güdür. Gürcüstanın cari xarici siyasət kursunu ölçülmüş duruş izləyir, lakin regional təhlükəsizlikdəki dayandığı nöqtənin bərkidilməsi üçün əlavə tədbirlərə ehtiyac var. Dövlət başçısı İlham Əliyevlə Qaribaşvilinin müzakirə predmetinin mövzuları həmin istiqamətlər üzrə yeni planların hazırlanması üçün xoşməramlı niyyətin ifadə edilməsi anlamını daşıya bilər".

**İsmayıl Qocayev**



# Zakir Həsənov Türkiyəyə "əli dolu" gedib!

## Nazirlər regional təhlükəsizlik məsələlərini gündəmə gətiriblər

**"Müdafiə naziri Zakir Həsənovun Türkiyəyə işgüzar səfərində əsas müzakirə mövzusu Qarabağdakı son vəziyyətlə bağlı olacaq. Qarabağda, Azərbaycan-Ermənistan sərhədində əməliyyatlar hər zaman öz aktivliyini qoruyur.**

Yekun sülh razılaşmasınadək proses davam edəcək. Gözləntilər özünü doğrultmadıqca, Azərbaycanla Ermənistan arasında vaxtaşırı qarşıdurmaların baş verməsi realdır".

**Bunu "Şərq"ə açıqlamasında hərbi-siyasi ekspert Həşim Səhrablı deyib.**

Ekspert bildirib ki, qarşıdurmaların miqyası isə siyasi proseslərin necə şaxələnəcəyi ilə əlaqəlidir: "İrimiqyaslı əməliyyatların keçiriləcəyi gözlənilmir. Lokal xarakterli döyüşlər baş verə bilər. Son hadisələr siyasi gərginliyin pik nöqtədə olduğunu göstərir. İran-Ermənistan yaxınlaşması, Qafan şəhərində İranın Baş konsulluğunun açılması, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Zəngilan Hava Limanının açılışından sonra ötürdüyü siyasi mesajlar, Zəngəzur dəhlizindən danışması, regionun həyatı ilə bağlı bir sıra siyasi açıqlamalar qarşıdurmaların gerçəkləşəcəyini deməyə əsas verir. Liderlər Brüsseldə sülh danışıqlarının istiqamətinin bəlli olması üçün razılaşmışdılar.

Lakin Ermənistan tərəfi yenə "milli maraqlar"ından çıxış edir. Masada Azərbaycandan nəsə qopartmağa çalışır. Həm hərbi sahədə, həm siyasi masa ətrafında Azərbaycan güclü tərəfdir.

Əligüclü olmaq tək Ermənistana qarşı deyil, onun havadarı rəsmi Tehrana qarşı da özünü qorumaq anlamına gəlir. Zakir Həsənovun işgüzar səfərdə sözügedən məsələləri qabardacağı güman edilir".

Qeyd edək ki, Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov oktyabrın 24-də Türkiyəyə işgüzar səfərə gedib. Səfər çərçivəsində müdafiə nazirinin ikitərəfli hərbi əməkdaşlıq və regional təhlükəsizlik məsələlərinə dair görüşləri, eləcə də qardaş ölkədə keçiriləcək "Saha Expo" sərgisində iştirakı planlaşdırılır.

**Aygün Tahir**

# Zəngəzur dəhlizi açılmalı, sülh sazişi imzalanmalıdır

**"Görüş rəsmi Moskvanın vasitəçiliyi ilə keçiriləcək. Avropada əldə olunan müəyyən yaxınlaşmalardan sonra şəxsən Fransa Prezidenti Emmanuel Makronun imzası ilə Avropanın adına ləkə olacaq ifadələrin səsləndirilməsi onların mövqeyini ciddi şəkildə sarsıtdı. Ona görə Rusiyanın dərhal hərəkətə keçməsi baş verə biləcək hadisə idi".**



Azərbaycan, Ermənistan, Rusiya prezidentlərinin görüşündə dönüş gözlənilir

*Bunu "Şərq"ə açıqlamasında Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli deyib.*

Ekspert bildirib ki, Ukrayna-Rusiya müharibəsi kontekstində müqavilənin imzalanmasını və Zəngəzur dəhlizinin açılmasını gözləməliyik: "Uzunmüddətli proses deyil. Yol üzərində Avropanın, yoxsa Rusiyanın nəzarət etməsi əsas məsələdir. Dünyanın taleyini həll edəcək vacib amildir.

Rusiya-Ukrayna müharibəsi beynəlxalq təchizat zəncirini sıradan çıxardı. Həmin zəncir qısa yolla Zəngəzurdan keçməlidir. Keçmədikcə böyük problemlər yarana bilər.

Bahalaşma kimi məsələlərə şərait yaradan Ermənistan və İrandır. Rusiya və Avropa yol çəkərək ciddi nəzarət əldə etməyə çalışırlar. Soçi görüşündən daha əhəmiyyətli addımların atılmasını gözləməliyik. Buna çox yaxınıq".

*Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın Baş naziri Nikol Paşinyan və Rusiya Prezidenti Vladimir Putin arasında Rusiyada üçtərəfli görüş keçirilə bilər. Tədbirin keçirilməsi üçün əsas yerlər Moskva və Soçi hesab olunur.*

**Aygün Tahir**

**Milli Məclisdə "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin ictimai müzakirəsi keçirilib. Müzakirələrdə parlamentdə təmsil olunan və parlamentdən kənar siyasi partiyaların nümayəndələri iştirak edib. İclasdan əvvəl Milli Məclisin sədri Sahibə Qafarova partiya sədrləri ilə görüşüb. Vitse-spiker, Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Fəzail İbrahimli yeni qanun layihəsinin hazırlanmasını vacib edən amillərdən danışıb. O deyib ki, "Siyasi partiyalar haqqında" qanun layihəsi hazırlanarkən 20 ölkənin təcrübəsi öyrənilib:**





# Partiyaların minimum 10 min üzvü olmalıdır

## 47 siyasi partiyadan 250-yə qədər təklif gəlib

"Mövcud qanun 30 il bundan əvvəl qəbul edilib. 30 ildə Azərbaycan dəyişib, məğlub Azərbaycan qalib Azərbaycan statusuna yüksəlib, beynəlxalq münasibətlər sistemində söz sahibi olub. Bütün bu zərurət yeni qanun layihəsinin ərsəyə gəlməsinə rəvac verdi. Hüquqi cəhətdən Azərbaycan Avropa məkanının tərkib hissəsidir. Ona görə Avropa məkanında olan qabaqcıl ölkələrin qanunlarına baxıldı. Bu qanun layihəsi də Azərbaycanda mövcud olan siyasi sistemin ciddi məqamları nəzərə alınmaqla hazırlandı. İlk söykəndiyimiz mənbə Venesiya Komissiyasının siyasi partiyaların fəaliyyətinin tənzimlənməsi ilə bağlı verdiyi tövsiyələrdir. Bundan başqa, ekspert komissiyası yaratdıq və 20 ölkənin bu sahədəki təcrübəsi diqqətlə öyrənildi və araşdırıldı. Qanun layihəsinin hazırlanmasında ölkədə olan siyasi partiyalardan gələn təkliflər də mühüm rol oynadı. 47 siyasi partiyadan 250-yə qədər təklif gəlib. Təklifləri qruplaşdırıb, təhlil etdik". Fəzail İbrahimli deyib ki, yeni qanun layihəsi ilə bağlı növbəti dinləmə təşkil ediləcək: "Həmin dinləmə başqa formada həyata keçiriləcək və bu dinləmədə sizdən alınan təkliflər də nəzərə alınacaq".

**"Bəziləri irad bildirir ki, həddən çox tənzimləməyə gedilir"**

**Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli bu illər ərzində qonşu ölkələrdə də siyasi partiyalarla bağlı qanunvericiliyin dəyişdiyini diqqətə çatdırıb:** "Mövcud qanuna məhz VI çağırış parlamentin fəaliyyəti dövründə mühüm dəyişiklik edilib, siyasi partiyaların maliyyələşdirilməsi ilə bağlı maddə dəyişib. Siyasi partiya anlayışı, partiyaların təsis edilməsi, partiyaların maliyyələşməsi və s. kimi məsələlər qanunvericilikdə konkret şəkildə göstərilməlidir. Siyasi partiyalara məhdudiyyətlərin qoyulması məsələsi bütün ölkələrdə dilemma yaradır. Demokratik cəmiyyət üçün məhdudiyyətlər Avropa İnsan Haqları Konvensiyasının müvafiq müddəalarında da əksini tapıb. Buna uyğun olaraq yeni qanun layihəsində olan məhdudiyyətlər də özünü göstərir. Bugünkü müzakirələrdə səslənəcək fikirlər, hətta söylənəcək iradlar belə ölkəmizin siyasi partiyalarla bağlı qanunvericiliyinin hazırlanmasına öz töhfəsini verəcək". Ə.Hüseynli vurğulayıb ki, ən çox narazılıq yaradan ikinci fəsildir: "Bəziləri irad bildirir ki, həddən çox tənzimləməyə gedilir. Amma balans qorunmalıdır. Bu balans qorunmasa, Venesiya Komissiyasının tövsiyələrinə də uyğun olmaz. Bu qanun layihəsi yeni hazırlanıb, Venesiya Komissiyasının rəyinə istinad olunub. Bütün ölkələrlə bağlı Venesiya Komissiyasının rəyləri ilə tanışıq. O rəydə Azərbaycanla bağlı mənfi rəy bildirilib. Venesiya Komissiyasının Moldova ilə bağlı da rəyi var. Digər ölkələrə münasibətdə Venesiya Komissiyası fərqli mövqe sərgiləyir".

**"Konstitusiyaya görə, qanunun geriyə şamil olunma qüvvəsi yoxdur"**

**Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini, Azərbaycan Xalq Cəbhəsi Partiyasının (BAXCP) sədri Qüdrət Həsənquliyev partiya təsisçilərinə dair məhdudiyyəti düzgün saymayıb:** "Bəlli bir qrup var ki, nə edirsən et, yanaşmaları budur ki, siyasi partiyaların fəaliyyətini məhdudlaşdırmaq məqsədilə qanun qəbul edilir. Qanun layihəsindən yalnız 20 il Azərbaycanda yaşamış şəxsin Azərbaycanda siyasi partiyanın təsisçisi ola biləcəyi ilə bağlı müddəa çıxarılmalıdır. Bu, Konstitusiyaya ziddir". Partiya sədri qanun layihəsində keçid müddəasına əsasən, yeni tələblərin hazırda dövlət qeydiyyatına alınmış partiyalara da şamil olunmasını düzgün saymayıb: "Konstitusiyanın 149-cu maddəsinə əsasən, layihədəki 30.1-ci maddə də Konstitusiya ilə ziddiyyət təşkil edir. Çünki Konstitusiyaya görə, qanunun geriyə şamil olunma qüvvəsi yoxdur. Siyasi partiyaların seçkilərdə iki dəfə iştirak etməməsi ilə bağlı maddə də çox müzakirə olunur. Bu, əslində siyasi partiyaların hərəkətliliyi təmin edilməyə hesablanır. Çünki siyasi partiyanın namizədinin qeydə alınmaması məsələsi var. Bu halda da partiya seçkilərdə iştirak etmiş sayılmalıdır. Partiyaların aktivliyinin təmin olunması məqsəddirsə, siyasi partiyaların namizədlərinin qeydiyyata alınması ilə bağlı məsələ sadələşdirilməlidir. Bir şəxsin neçə siyasi partiyaya üzv olması məsələsini də siyasi partiyaların dəqiqləşdirmək imkanı yoxdur. Bu da daha çox mənəvi məsələdir, nəinki hüquqi. Dövlət qulluqçularının siyasi partiyalara üzv olması məsələsinə də diqqət çəkmək istəyirəm. Dövlət qulluqçuları siyasi vəzifə tutursa, bu hüquq ona tanınmalıdır. İnzibati vəzifə tutan dövlət qulluqçularına isə siyasi partiyaya üzv olmaq qadağan edilməlidir".

**"Partiyalardan gələn təkliflər qruplaşdırılıb..."**

**Deputat, Sosial Tədqiqatlar Mərkəzinin sədri Zahid Oruc deyib ki, siyasi partiyaların fəaliyyətinə yalnız dövlət qeydiyyatına alındıqdan sonra icazə verilməsi təklifi 5 partiya tərəfindən irəli sürülüb:** "İndiki qanun layihəsində bu, daha da konkretləşdirilir və siyasi partiyalar hüquqi şəxs olmalıdır tələbi qoyulur. Bu, Venesiya Komissiyasının tövsiyə sənədlərində də yer alır. Dövlət maliyyə yardımının xərclənməsinə nəzarətin Hesablama Palatası tərəfindən aparılması təklif edilib. Bazar qiymətindən aşağı olan hər hansı mülkün ianə sayılması Ana Vətən Partiyası tərəfindən irəli sürülüb və qanun layihəsində yer alıb. Milli Cəbhə və digər bir neçə partiya siyasi partiyalarla bağlı işlərə Apelyasiya Məhkəməsində baxılmasını təklif edib. Digər təklif seçkilərdə iştirak etməyən siyasi partiyaların ləğvi ilə bağlıdır. Bəziləri bunu partiyanın 2 dəfə seçkilərdə iştirak etmədikdə, bəziləri isə 3 dəfə iştirak etmədikdə ləğv olunması təklifi ilə çıxış edib. Bəziləri ardıcıl 2 parlament seçkilərində iştirak etmədikdə, bəziləri isə həm parlament, həm bələdiyyə seçkilərində iştirak etmədikdə siyasi partiyaların qeydiyyatının ləğv edilməsini irəli sürüb. Qanunvericiliyi pozaraq, qəbul edilən ianələrin dövlət büdcəsinə qaytarılması təklifi ilə Sosial Rifah Partiyası çıxış edib. Mühüm məsələlərdən biri yaşama müddətinə dair məhdudiyyətlərlə bağlıdır. Azərbaycan Yüksəliş Partiyası bunu 5 il, REAL Partiyası daimi, bəzi partiyalar 15 il yaşama müddətinin qoyulması təklifləri irəli sürüb. Partiyaların təsis olunduqdan sonra hüquqi qeydiyyata alınana qədər bəlli zaman keçməsi təklifi də qanunda əksini tapıb. Partiyalar 2 mərhələdə qeydiyyata alınacaq. Siyasi partiyalar adından digər təsisçilər tərəfindən iddialar irəli sürülməməsi ilə bağlı təkliflər də var. Gerçəkdən də bu məsələ ilə bağlı müxtəlif vaxtlarda Azərbaycanda belə problemlər ortaya çıxıb. Siyasi partiyaların rəhbərlərinə toxunulmazlıq verilməsi təklifi də irəli sürülüb. Siyasi partiyaların rəhbərlərinə diplomatik pasportların verilməsi təklifi ilə AĞ Partiya və digər partiyalar çıxış edib".

> Parlamentdə "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin ictimai müzakirəsi keçirilib

**"Siyasi sistemimizə müəyyən məhdudiyyətlər qoymalıyıq"**

**Deputat, Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə qanunvericiliyə oliqarxların siyasi fəaliyyətinə dair məhdudiyyət təklif edib. Sədr bildirib ki, birpartiyalı sistemdən çoxpartiyalı sistemə keçdiyimiz üçün xarici ölkələrin təcrübələrini öyrənirik:** "Təmərküzləşməyə ehtiyac yaranıb. Qərbdə bu proses tədricən gedib. Lakin son illər bir şey çox ciddi dəyişib. Ənənəvi partiyalar, ənənəvi sistemlər artıq rəqəmsal dünyada öz gücünü itirib. İtaliyada seçkiləri misal kimi gətirə bilərəm. 1 il əvvəl yaranan partiya seçkilərdə qalib gəlib hökuməti formalaşdırır. Artıq ənənəvi partiyalara inam itib. ABŞ-da 400 siyasi partiya var, seçkilərdə ikipartiyalı mübarizə gedir. Bu, yerlərdə formalaşan ənənələrdən gəlir. Ancaq son illər postsovet ölkələrində müşahidə etdiyimiz budur ki, ölkənin siyasi sistemini xarici təsirlərdən qorumağa ehtiyac var. Ukraynada Medvedçuk var idi. Digər ölkələrdə də bu ixracları, oliqarxları gördük. Düşünürəm ki, xaricdən olan təsirlərin qarşısını almaq üçün öz siyasi sistemimizə müəyyən məhdudiyyətlər qoymalıyıq. Xaricdən maliyyələşən siyasi korrupsiya çox ciddi amildir. Biz bunu Fransa parlamentinin fəaliyyətində, ABŞ Konqresində görürük. Bu, müşahidə edilərək aşkar olunmalıdır. Yaxud da hazırda biz yeni qanunu müzakirə ediriksə, qanunvericilikdə bununla bağlı məhdudiyyətlər olmalıdır. Bizim bir təklifimiz də xalqın adından siyasi partiyanın danışması ilə bağlıdır".

**"Elə adam var ki, 5 partiyanın üzvüdür"**

**Azərbaycan Demokratik Maarifçilik Partiyasının sədri, deputat Elşən Musayev bildirib ki, partiyaların nə qədər üzvünün olduğunu bu qanundan sonra görəcəyik:** "Bunu nəyə görə deyirəm. Bəzi adamlar var ki, cibində bir neçə partiyanın vəsiqəsi var. Eyni anda 5 partiyanın üzvüdür. Elə adam var ki, bütün partiyaların tədbirində iştirak edir. Həmin adamları YAP-ın tədbirində, həm də Müsavatın tədbrində görürük. Bu qanun həmin şəxsləri ortaya çıxaracaq".

**Millət vəkili, Milli Cəbhə Partiyasının sədri Razi Nurullayev deyib ki, təsis edilən partiyanın 10 min üzvü olması ilə bağlı təklif verən partiyalardan biri Milli Cəbhə Partiyasıdır.** O bildirib ki, hər bir siyasi partiyanın 10 min üzvünün olması 10 min Azərbaycan vətəndaşını fəallaşdırmaq deməkdir: "Bəs "200-300 min üzvümüz var" deyən partiyalar 10 min üzvünün adını yığıb verə bilməyəcək?".

**"Bu fəallıq qüvvədə olan qanunvericiliklə adekvat deyil"**

**Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı Azərbaycanda 90-cı illərdən fərqli olaraq siyasi partiyaların siyasi sistemdə fəallığının kifayət qədər artdığı qənaətindədir:** "Bu fəallıq qüvvədə olan qanunvericiliklə adekvat deyil. Ölkədə aparılan siyasi islahatların tərkib hissəsi kimi partiyaların yeni konfiqurasiya prosesində fəal iştirakı labüddür. Bu zəruri amillərə söykənərək təqdim olunmuş yeni qanun layihəsi təkmilləşdirilib".

**İsmayıl Qocayev**





# Turan şairi Əhməd Cavad Şəmkirdə və Gəncədə anıldı

## "Azərbaycan Türk Ocağı" silsilə tədbirlərini davam etdirir





**Azərbaycan istiqlal tarixində özünəməxsus yeri olan böyük şair Əhməd Cavadın 130 illik yubileyi Azərbaycan Türk Ocağı İctimai Birliyinin təşkilatçılığı, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin yardımı ilə davam etdirilir.**

"Əhməd Cavad və Türk Dünyası" layihəsi çərçivəsində oktyabrın 20-də Ə.Cavadın doğulduğu Şəmkirə səfər edən Azərbaycan Türk Ocağı İctimai Birliyinin üzvləri Heydər Əliyev Mərkəzində rayon ictimaiyyətinin nümayəndələri, ictimai fəallarla görüşüb. "Azərbaycan Türk Ocağı"nın sədri, "Şərq" qəzetinin baş redaktoru, tarix üzrə fəlsəfə doktoru Akif Aşırlı tədbiri açaraq Ə.Cavadın Şəmkirdən başlanan ömür yoluna qısa ekskursiya edib, şairin istiqlal duyğulu şeirlərinin məziyyətindən danışıb: "Ə.Cavad təkcə Cümhuriyyətin ədəbi simvolu deyil, Türkiyə-Azərbaycan qardaşlığının birliyinin təcəssümüdür. Azərbaycan Xalq Cümhuriyyəti quruculuğunda Ə.Cavad publisistikası şeiriyyəti qədər önəmli rol oynayıb". A.Aşırlı bildirib ki, Ə.Cavad Türkiyənin bütövlüyü uğrunda türk mehmetcikləri ilə bir səngərdə döyüşüb, I Dünya müharibəsi zamanı Şərqi Anadoluda erməni-rus zülmünə düçar olan, yurdu yağmalanan soydaşlarımıza Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti xətti ilə yardımlar paylayıb, yetim uşaqları Tiflisə, Gəncəyə, Bakıya gətirib. Ə.Cavad Cümhuriyyətin sərhədlərini bərpa edən, Gəncədən Bakıya, Bakıdan Qarabağa, Dərbəndə qədər azadlıq savaşı aparan Qafqaz İslam Ordusunu şeirləri ilə salamlayıb. A.Aşırlı qeyd edib ki, Turan şairi 1918-ci il sentyabrın 17-də Bakıya, öz paytaxtına qovuşan Azərbaycan Xalq Cümhuriyyətinin ilk qeyri-hökumət təşkilatı olan Azərbaycan Türk Ocağının təsisçisilərindən biri olub. 1918-1920-ci illərdə fəaliyyət göstərən Azərbaycan Türk Ocağını Cümhuriyyətin 100-cü ildönümündə yenidən dirçəldilməsinə, bərpasına toxunan A.Aşırlı bildirib ki, Ə.Cavad irsi xalqın mənəvi dəyərləri sistemində ön sıralardadır.

Azərbaycan Dövlət Slavyan universitetinin professoru, Ə.Cavad yaradıcılığının mükəmməl tədqiqatçısı Bədirxan Əhmədov şairin poetik gücündən, şeiriyyətinin forma və məzmunundan danışıb. B.Əhmədov bildirib ki, XX əsr Azərbaycan ədəbiyyatı tarixində poeziyada əruz vəznindən qoşma, heca və sərbəst şeirə keçid Ə.Cavadla başlayır. Ə.Cavadın yaradıcılığına böyük türk şairi M.Ə.Yurdaqunun güclü təsirlərindən danışan professor B.Əhmədov sovetlər dönəmində şairin taleyinə də toxunub, mühacirət mətbuatında çap olunan yazıların təhlilini qısa formada dinləyicilərə çatdırıb.

Gəncə Dövlət Universitetinin tarix fakültəsinin müəllimi, tarix üzrə fəlsəfə doktoru, dosent Cavid Bağırzadə Ə.Cavadın həyat və fəaliyyətində Şəmkir və Gəncənin rolundan danışıb. Böyük şəxsiyyətlər vətəni Şəmkirin Ə.Cavadın böyüməsində, ilk təhsilində önəmli roluna toxunan C.Bağırzadə qeyd edib ki, Gəncə mühiti şairin taleyində mühüm əhəmiyyətli rola malikdir. Abdulla Surun, Hüseyn Cavidin Ə.Cavadın Gəncədə ilk müəllimləri olduğuna toxunan C.Bağırzadə bu şəxsiyyətlərin Ə.Cavadın milli, türkçü mövqeyinin formalaşmasına, cəmiyyətdə önə çıxmasına tarixi şərait yaratdığını tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Tədbir iştirakçıları da həmyerliləri barədə fikirlərini səsləndirib, təkliflər irəli sürüblər. Təkliflərdən biri Şəmkirdə Ə.Cavadın ev muzeyinin yaradılması barədədir. Yəqin aidiyyəti qurumlar şəmkirlilərin bu təklifinə laqeyd qalmayacaqlar.

Oktyabrın 21-də Şəmkirdə başlanan tədbir Gəncədə davam etdirilib. Gəncə Dövlət Universitetinin akt zalında düzənlənən tədbiri öncə bu ali məktəbin prorektoru, professor Gülsüm Fətəliyeva açaraq bildirib ki, bu il Prezident İlham Əliyevin sərəncamı ilə Ə.Cavadın 130 illik yubileyi qeyd edilir. Professor G.Fətəliyeva Ə.Cavadın fəaliyyətinə, Cümhuriyyətin qurulmasında iştirakına və şairin Gəncə dövrünə qısa nəzər yetirib.

Azərbaycan Türk Ocağı İctimai Birliyinin sədri A.Aşırlı Gəncə ədəbi-bədii, ictimai-siyasi mühitinin Ə.Cavadın şəxsiyyət kimi formalaşmasına təsirlərindən söhbət açıb. Cümhuriyyətin ilk qeyri-hökumət təşkilatı Azərbaycan Türk Ocağının qurulmasında, cəmiyyətin fəaliyyətində Ə.Cavadın rolu barədə danışıb. Başımız üstə dalğalanan üçrəngli müqəddəs bayrağa ilk şeirin müəllifinin də Ə.Cavad olduğunu xatırlayıb: "Ə.Cavad istiqlal şairidir. Bu böyük mütəfəkkir şairin ruhu istiqlalçılıqdır, xalqın müstəqil, hürr yaşamasıdır. Müstəqil dövlətimizin himninin müəllifi də bu böyük edib, mütəfəkkirdir".

Ədəbiyyatşünas alim, professor Bədirxan Əhmədov tələbələr qarşısında Ə.Cavad yaradıcılığını, ictimai-siyasi mövqeyini, mühacirət mətbuatında bu böyük mücahidi barəsində çap olunan yazılar barədə geniş çıxış edib, B.Əhmədov XX əsr Azərbaycan ədəbiyyatı üzərində müqayisəli təhlillər aparıb, şairin yaradıcılığında xalq deyimlərinin əks olunmasına toxunub.

Tarix üzrə fəlsəfə doktoru C.Bağırzadə, filologiya üzrə fəlsəfə doktoru, dosent Səba Namazova, AMEA-nın Gəncə bölməsinin əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Əlimuxtar Muxtarov, Gəncə Dövlət Universitetinin dosenti Bayram Apoyev Ə.Cavad yaradıcılığının, həyat və fəaliyyətinin müxtəlif istiqamətləri barədə məruzə edib.

*Sonda tələbələr Ə.Cavad barədə çıxışlar edib, böyük şairin şeirlərini səsləndiriblər. Tədbir iştirakçıları Azərbaycan və Türkiyənin bayraqları ilə bəzədilən salonda müəllifi Ə.Cavad olan "Çırpınırdı qara dəniz" mahnısını oxuyublar.*

**Kənar Eynuroğlu,**
**Bakı-Şəmkir-Gəncə-Bakı.**

# Yolumuz birdir

## Gürcüstan Azərbaycanın haqq işinə dəstək verən ölkələrdəndir



**"Gürcüstan ölkəmizin strateji müttəfiqlərindən hesab olunur".** Bu sözləri millət vəkili, iqtisadçı Vüqar Bayramov deyib. Deputat bildirib ki, Azərbaycanın reallaşdırdığı bütün regional layihələr məhz Gürcüstan üzərindən həyata keçirilib: "Regional enerji və nəqliyyat layihələri Gürcüstan iqtisadiyyatında xüsusi paya malikdir. İki ölkə arasındakı ticarət dövriyyəsi də əhəmiyyətli səviyyədədir. Bu ilin ilk 9 ayında iki ölkə arasındakı ticarət dövriyyəsi 525 milyon 737 dollar olub. Bu, əvvəlki ilin ümumi dövriyyəsi ilə, demək olar, eynidir. Belə ki, 2021-ci ilin eyni dövründə ölkələr 549 milyon 297 min dollarlıq ticarət reallaşdırıblar. 2021-ci ildə isə illik dövriyyə 763 milyon 695 min dollar olub. Ötən il ölkələr arasındakı ticarət dövriyyəsi 2020-ci il ilə müqayisədə 30 faiz artıb. Rəqəmlər də göstərir ki, ölkələr iqtisadi sahədə geniş əməkdaşlığa malikdirlər. Digər tərəfdən, Azərbaycan Gürcüstanın enerji təhlükəsizliyinə xüsusi töhfə verir. Bu ilin ilk 9 ayında Gürcüstana 1,9 milyard kubmetr qaz ixrac edilib. Bu, Gürcüstanın qaza olan tələbinin əhəmiyyətli hissəsi deməkdir. İqtisadi əməkdaşlıqla yanaşı, Gürcüstan Azərbaycanın haqq işinə dəstək verən ölkələrdəndir. Vətən müharibəsində Gürcüstanın mövqeyi kifayət qədər təqdirəlayiq qiymətləndirilir. Bu isə münasibətlərimizin dayanıqlığını bir daha təsdiq edir".

**İsmayıl**

# Fransa Senatında Azərbaycana qarşı qətnaməyə etiraz olaraq petisiya hazırlanıb

**Fransa Senatında Azərbaycana qarşı hazırlanan qətnaməyə etiraz olaraq petisiya başladılıb.**

Etiraz petisiyasına qoşulmaq üçün video-təlimat hazırlanıb.

Video-təlimatda petisiyaya qoşulmağın qaydaları əksini tapıb.

*Qeyd edək ki, bu il noyabrın 15-də Fransa Senatında Azərbaycan əleyhinə qətnamə müzakirəyə çıxarılacaq. Qətnamə layihəsinə Azərbaycan əleyhinə müddəalar, o cümlədən neft-qaza embarqonun qoyulması daxil edilib.*

# Beynəlxalq təşkilatlarla əməkdaşlıq güclənəcək

## Mətbuat Şurasının Beynəlxalq Əlaqələr Komissiyasının yeni tərkibdə iclası keçirilib



**Azərbaycan Mətbuat Şurasının Beynəlxalq Əlaqələr Komissiyasının yeni tərkibdə ilk iclası keçirilib.**

**Bu barədə "Şərq"ə Mətbuat Şurasından məlumat verilib.**

Toplantını açan Komissiya sədri, Jurnalistlərin Həmkarlar İttifaqının (JUHİ) rəhbəri Müşfiq Ələsgərli gündəlikdəki məsələlər barədə məlumat verib. Əvvəlcə Komissiyanın Əsasnaməsi müzakirə edilib. Sənəd əlavə və düzəlişlər nəzərə alınmaqla qəbul edilib. Daha sonra Komissiyanın qarşıdakı bir il üçün Fəaliyyət Planının layihəsi ətrafında fikir mübadiləsi aparılıb, müəyyən fəaliyyət təklifləri daxil edilməklə məqbul qiymətləndirilib.

Komissiya üzvləri qərara alıblar ki, qurum söz və ifadə azadlığının inkişafı sahəsində iş aparan bütün beynəlxalq təşkilatlarla əməkdaşlıq münasibətləri qursun, bunun üçün MŞ adından müvafiq müraciətlər ünvanlansın. Həmçinin media ilə bağlı beynəlxalq tendensiyaların izlənilməsi, uyğun reaksiyaların verilməsi də Komissiyanın vəzifələrindən biri kimi təsbit edilib.

*Qeyd edək ki, MŞ-nin Beynəlxalq Əlaqələr Komissiyasında Mətbuat Şurasının İdarə Heyətinin üzvləri Müşfiq Ələsgərli (Komissiyanın sədri), Yeganə Hacıyeva, Fərid Pərdəşunas, Umud Mirzəyev, Azər Həsrət, Aqil Ələsgər və Yadigar Məmmədli təmsil olunurlar.*

**Aygün**

ŞƏRQ Müstəqil ictimai-siyasi qəzet 25 oktyabr 2022-ci il (çərşənbə axşamı) Zaman



# Partiya sədrlərinə diplomatik pasport və toxunulmazlıq verilsin

## Parlamentdə təmsil olunmayan təşkilat rəhbərləri də təkliflər səsləndirdi

**Dünən Milli Məclisdə keçirilən ”Siyasi partiyalar haqqında” yeni qanun layihəsinin ictimai müzakirəsinə parlamentdə təmsil olunmayan partiyalar da qatılıblar. Partiya rəhbərləri qanun layihəsi ilə bağlı təkliflərini, tənqid və iradlarını səsləndiriblər.**

**“Parlamentdə təmsil olunmayan partiyalara dövlət dəstəyi olmalıdır”**

**Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə seçkilərdə iştirakla bağlı maddənin dəyişməsini istəyib:** ”Ola bilər ki, partiya seçkiyə qatılmaqla bağlı qərar qəbul etsin, ancaq Mərkəzi Seçki Komissiyası (MSK) partiya üzvünün namizədliyini qeydə almasın. Buna görə də bu məsələyə yenidən baxılmalıdır. Burada əsas şərt partiyanın seçkilərdə iştirakla bağlı qərarı olmalıdır. Parlamentdə təmsil olunmayan siyasi partiyalara dövlət dəstəyi məsələsinə də baxılmalıdır”.

**“Qanun layihəsini yazanların partiya təcrübəsi yoxdur”**

**AĞ Partiya başqanı Tural Abbaslı deyib ki, qanun layihəsini yazanların heç birinin partiya təcrübəsi yoxdur. Adamlar bilmir ki, üzvlər necə gəlir, üzvlərin psixologiyası necədir. O bildirib ki, bu layihəyə əsasən, üzvlərdən az qala qan qrupuna qədər istəyirlər:** ”Siz gedib indi qonşunuzdan şəxsiyyət vəsiqəsinin kodunu istəyin, görün verəcək? Amma partiya üzvlərinin elə məlumatları burada istənilir ki?.. Əgər məqsəd partiyaların fəaliyyətinin məhdudlaşdırılmasıdırsa, bu qanun çox əla hazırlanıb. Qanunun dili də bərbaddır. Biz partiyaları dövlətçilik maraqlarını hər şeydən üstün tutmağa səsləyirik. Partiyalar dövlətdən pul almırsa, İrandan da, Sorosdan da pul alacaq! Bu gün Azərbaycanda dövlətə xəyanət ittihamı ilə həbsdə olan partiya sədrləri var. Bu qanun yenə də ona yol açacaq. Partiyanın daxili nizamnaməsinin Ədliyyə Nazirliyinə nə aidiyyəti var? Dövlət partiya sədrinə hörmət qoymayandan sonra partiya üzvü nə hörmət qoyacaq?! Partiya sədrlərinin təhlükəsizliyinin təminatı məsələsini biz qaldırmışıq. Bütün gün avtobusdayam, yoldayam. Mənim təhlükəsizliyimi dövlət təmin etməyəcəksə, kim etməlidir?! Ümumiyyətlə, bu qanunu yazanın rəqəm anlayışı var?! Bu qanunu yazanlar heç insanla işləməyib. O, heç ömründə 4000 imza yığıb? Digər tərəfdən, biz siyasətlə məşğul olaq, ya hesabat yığaq?! Bu qanunun belə müzakirəsi də peşəkar deyil. Qanunun geriyə tətbiqi də yolverilməzdir”.

**“Reyestr məsələsi aradan qaldırılmalıdır”**

**Azad Vətən Partiyasının sədri Akif Nağı deyib ki, layihəylə bağlı da ortaq məxrəcə gəlinməlidir:** ”30 ildir burada partiyaların təcrübəsi var, bu təcrübə dövlətçiliyə xidmət etməlidir. Reyestr məsələsi aradan qaldırılmalıdır. İnsanların şəxsi məlumatlarına müdaxilə etmək olmaz. İnsanlara bir neçə partiyaya üzv olmaq hüququ verilməlidir. İkincisi, təsisçinin 20 il ölkədə yaşamasının biz əleyhinə olmalıyıq. Bunu minimuma endirməliyik, həmin məhdudiyyət 5 ilə endirilməlidir”.

Gələcək Azərbaycan Partiyasının sədri Ağasif Şakirli siyasi partiya rəhbərlərinin diplomatik pasportla təmin olunmasını, onlara toxunulmazlıq hüququ verilməsini təklif etdiklərini, ancaq bu təkliflərin layihədə əksini tapmadığını xatırladıb: ”Hakimiyyətin ona rəqib olan şəxslərə diplomatik pasport verməsi dünyada da yenilik olar. Eyni zamanda siyasi partiyalar Azərbaycana düşmən olan ölkələrə qarşı kəskin fikirlər səsləndirir. Həmin insanlar xaricdə səfərdə olarkən dövlət tərəfindən qorunmalıdırlar”.

**“Partiyadan çıxanlarla bağlı partiyada çox vaxt məlumat olmur”**

**Azərbaycan Liberal Demokrat Partiyasının sədri Fuad Əliyev reyestr məsələsinin layihədən çıxarılmasını təklif edib:** ”Partiyadan çıxanlarla bağlı partiyada çox vaxt məlumat olmur. Xəbərsiz partiyadan uzaqlaşanlar da olur. Ona görə bu barədə partiyanın üzərinə məsuliyyət qoyulması düzgün yanaşma deyil. Seçkilərdə 2 dəfə iştirak etməyəcəyi halda partiyanın qeydiyyatının ləğv olunacağı məsələsi də dəqiqləşdirilməlidir. Ola bilər ki, MSK seçkidə namizədliyi irəli sürülən partiya üzvünü qeydiyyata almasın”.

**“Azərbaycanda 3-4 iri partiya olmalıdır”**

**Azərbaycan Naminə Alyans Partiyasının sədri Abutalıb Səmədov hesab edir ki, çoxillik partiya təcrübəsi olanların fəaliyyətinə mane olmamaq lazımdır:** ”Ola bilər ki, partiyalar birləşsin, hətta mən artıq bunu çoxdan düşünürəm. Təkliflər də olub. Şərt deyil ki, mən sədr olum. Partiyalar böyüməlidir. Bunun üçün də insanlar ”kiçik olsun, mənim olsun” düşüncəsindən imtina etməlidirlər. Azərbaycanda 3-4 iri partiya olmalıdır. Hazırda Azərbaycanda ancaq YAP var. Bu gün Azərbaycanda partiya sədrləri 90-cı illərdə olan adamlardır, yeni adamlar gəlmir. Siyasətə yeni qüvvələr gəlməlidir, Azərbaycan siyasəti dəyişməlidir”.

**“İstəyirsiniz ki, üzvlərimizlə bağlı məlumatları verək, siz də bizi seçkidə rahat udasınız”**

**Respublikaçı Alternativ Partiyasının (ReAL) sədri İlqar Məmmədov qanun layihəsinin əleyhinə çıxıb. Onun fikrincə, bu layihənin müəllifləri Azərbaycanda siyasətin partiyalardan kənarda həyata keçirilməsini istəyir:**

”Burada reyestr məsələsi var. MSK zəhmət çəksin səsləri düz hesablasın, biz də bilək ki, hansı partiyanın nə qədər dəstəkçisi var. Siz partiyanın işini niyə konspektləşdirirsiniz? Bu, Azərbaycan dövlətçiliyinə, geosiyasi reallığa yaraşmır. Aşırı tənzimləmə qanunun başlıca konseptual çərçivəsidir. Başqa ölkələrdə partiyalar rəqibinin sosial tərkibini öyrənmək üçün böyük pul xərcləyir. Bizdə isə deyirlər ki, üzvlərinin hamısının adını bizə verin. İstəyirsiniz ki, biz sizə üzvlərimizlə bağlı məlumatları verək, siz də bizi seçkidə rahat udasınız. Hüquqi məsələlərə də baxılmalıdır. 2000 üzvü olan partiyalar var ki, bu gün parlamentdə təmsil olunur. Partiyaların əzəldən iki tipi var: - Fraksiya partiyası və kütləvi partiya. Bu qanun layihəsində təklif olunan model hamını kütləvi partiya etməkdir. Partiyaların fəlsəfi mənası isə siyasi spektri təmsil etməkdir. Partiyaların hüquqi vəziyyəti seçkidəki performansına bağlı olmalıdır. Biz ölkənin siyasi partiya sistemini yüksək səviyyəyə qaldırmalıyıq”.

**“Cümlə yaza bilməyən adamlar bu gün partiya sədrləridir”**

**Ədalət Partiyası sədrinin müavini Elxan Şükürlü qanunun daha sərt formada qəbulunun tərəfdarı olduqlarını vurğulayıb:** ”Bu qanun layihəsi güclünün ayaqda qalması üçündür. Cümlə yaza bilməyən adamlar bu gün partiya sədrləridir. Qanunun tələbləri daha da sərtləşdirilməli, siyasi partiyaların təmərküzləşməsinə şərait yaradılmalıdır. Təkcə AXCP və Müsavat partiyalarından nə qədər adam çıxıb özünə ayrıca partiya yaradıb. Güclü olan bu qanun layihəsinin qəbulundan narahat olmamalıdır. Belə əhatəli qanun hazırladığına görə ekspert qrupuna təşəkkür edirəm. Kim narahatdırsa, qanun layihəsinin əleyhinə çıxır”.

**“Qanun qəbul edəndə cəmiyyətdə bütün təbəqələr razı qalmır”**

**Vətəndaş Birliyi Partiyasının sədri Sabir Hacıyev hesab edir ki, cəmiyyətdə bu qanun layihəsi ilə bağlı bu qədər müzakirələr gedirsə, deməli, qanunun dəyişməsinə zərurət var:** ”Ümumiyyətlə, hər hansı qanunu qəbul edəndə cəmiyyətdə bütün təbəqələr razı qalmır. Amma belə dinləmələr ona gətirir ki, həmin narazılıqlar getgedə azalır. Cəmiyyətdə və mətbuatda xeyli fikirlər səsləndirilir ki, partiya qeydiyyata alınanda onun üzvlərinin sayının göstərilməsi düzgün deyil. Amma bu, mövcud qanunda var. 90-cı ildə partiya yaratmaq üçün 1000 üzvün tələb olunması böyük rəqəm idi. Amma indi əhalinin sayı da artıb, siyasi aktivlik də artıb. Ona görə də yeni layihədə olan rəqəmlər saxlanılmalıdır, yaxud rəqəmlər dəyişsə də, üzvlərin sayının göstərilməsi tələbi qalmalıdır. Bizim partiyanın da təklifləri layihədə nəzərə alınıb”.

**“Yeni nəsillə məhdudlaşdırma dilində danışmaq olmaz”**

**Böyük Azərbaycan Partiyasının (BAP) sədri Elşad Musayev bildirib ki, siyasi partiyanı inkişaf etdirmək üçün ona azadlıq verilməlidir:** ”Partiyanın qeydiyyatı üçün Gürcüstanda 3000 nəfər üzv şərti var. Digər tərəfdən, qanunda əsasən, məhdudlaşdırıcı müddəalar götürülüb. Yeni nəsillə məhdudlaşdırma dilində danışmaq olmaz”.

Azərbaycan Liberal Partiyasının sədri Əvəz Temirxan düşünür ki, mütləq bütün partiyalar qeydiyyata alındığı gündən dövlət tərəfindən maliyyələşdirilməlidir və qeydiyyatda olan siyasi partiyalar imza toplamadan seçkilərdə iştirak etməlidir. Respublikaçılar Partiyasının sədri Sübut Əsədova görə, seçkidə iştirak etməyən partiyanın qeydiyyatının ləğv edilməsi tələbi düzgün deyil.

**Klassik Xalq Cəbhəsi Partiyasının üzvü Gülağa Gözəlov da irad və təkliflərini bildirib:** ”Seçkilərdə iştirak etməyən partiyaların ləğvi məsələsini dəstəkləmirik”.

**İsmayıl Qocayev**



## Şuşa Bəyannaməsindən sonra yeni dövr başlayıb

### Ərdoğan Füzuli və Zəngilan aeroportlarının əhəmiyyətindən danışıb

**İşğaldan azad edilmiş ərazilərdə rekord müddətə inşa edilən Füzuli və Zəngilan aeroportları bölgənin inkişafı baxımından son dərəcə əhəmiyyətlidir.**

APA-nın İstanbul müxbirinin verdiyi xəbərə görə, bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Nazirlər Kabinetinin iclasından sonra xalqa müraciətində bildirib.

O qeyd edib ki, Zəngilan rayonunda ”Dost Aqropark” ağıllı kənd təsərrüfatı kompleksinin birinci mərhələsinin açılması kənd təsərrüfatına böyük sərmayə qoyulduğunu göstərir.

Ərdoğan Azərbaycanın işğaldan azad edilmiş ərazilərində minatəmizləmə prosesinin sürətlənməsinə dair qərar verildiyini də vurğulayıb.

Bundan əlavə, Türkiyə Prezidenti Şuşa Bəyannaməsinin imzalanması ilə Azərbaycan-Türkiyə münsabətlərində yeni dövrün başladığını da diqqətə çatdırıb.

## Cəlilabadda əsgər intihar edib

### Naxçıvanda isə hərbçi avtomatdan açılmış atəş nəticəsində həlak olub

**Cəlilabadda əsgərin intiharı faktı araşdırılır.**

Bu barədə Baş Prokurorluğun mətbuat xidmətindən bildirilib.

Qeyd olunub ki, 2003-cü il təvəllüdlü əsgər Murad Şahbazovun oktyabrın 23-də yaşadığı Cəlilabad rayonu, Günəşli kəndində özünü asaraq intihar etməsi faktı ilə bağlı Cəlilabad rayon prokurorluğunda araşdırma aparılır.

Azərbaycan Ordusunun hərbi qulluqçusu avtomat silahdan açılmış atəş nəticəsində həlak olub.

Bu barədə Respublika Hərbi Prokurorluğu məlumat yayıb.

## 5 nəfər koronavirusa yoluxub

### Son sutkada xəstəlikdən ölən olmayıb

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına son sutkada 5 yeni yoluxma faktı qeydə alınıb, 15 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, xəstəlikdən ölən olmayıb.

İndiyədək ölkədə ümumilikdə 822 959 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 812 677 nəfər müalicə olunaraq sağalıb, hazırda 345 aktiv xəstə var. Bu günə qədər 9 937 nəfər vəfat edib.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 1 345, bu günə qədər isə ümumilikdə 7 307 057 test icra olunub.

Azərbaycanda son gündə koronavirus əleyhinə 1 vaksin vurulub.

ŞƏRQ
Müstəqil ictimai-siyasi qəzet
25 oktyabr 2022-ci il (çərşənbə axşamı)
www.sherg.az



# Rusiya mətbuatı sifarişli məqalələr çap edir

## Fuad Abbasov: “Komsomolskaya pravda”da gedən yazı böyük ehtimalla Ara Abramyan tərəfindən təlimatla yazılıb”



**Rusiya mediasının Azərbaycana qarşı təxribatları davam edir. ”Pervıy kanal”ın efirində yayımlanan ”Bolşaya İqra” tok-şousundakı təxribatdan sonra ”Komsomolskaya pravda” qəzetində də anti-Azərbaycan mövqeli məqalə nəşr olunub.**

”Paşinyan Ermənistanı Qərbə aparmaq üçün Qarabağı təslim edir” başlıqlı məqalədə, guya, Vaşinqtonun Moskvanın xəbəri olmadan İrəvanı təslim olmağa və ”Artsax”dan imtina etməyə razı saldığı qeyd olunub. Əvvəldən axıra qədər Azərbaycanın ərazi bütövlüyünün əleyhinə olan fikirlərin qeyd olunduğu məqalədə bir Azərbaycan-Ermənistan nizamlanması ilə bağlı Vaşinqtonun planının əks olunduğu sənəddən də bəhs olunub. Qeyd olunub ki, sənədə əsasən, ”Qarabağ ermənilərinə hansısa statusun verilməsi nəzərdə tutulmayıb”. Göründüyü kimi, ”Komsomolskaya pravda” Qarabağ ermənilərinin İkinci Qarabağ müharibəsinin yekununda gorbagor olan ”status”unun dərdinə düşüb. Məqalədə Azərbaycan əleyhinə təxribatçı fikirlər bununla bitməyib. Müəllif Aleksandr Sergeyev məlum sənədin dərc olunmasının Ermənistanda və Qarabağda etiraz hərəkatında yeni dalğaya hələlik səbəb olmadığını və reallıqda bunun ”Dağlıq Qarabağ”ın tamamilə Azərbaycanım yurisdiksiyasına keçməsi anlamına gəldiyini yazıb. Azərbaycan Prezidenti İlham Əliyevin ”Qarabağda yaşayan ermənilər Azərbaycan vətəndaşlarıdırlar və onlara Azərbaycanın Konstitusiyasına tam uyğun davranılacaq” bəyanatını xatırladan müəllif bir az da irəli gedərək ”Qarabağda tezliklə bir nəfər də erməni qalmayacaq” kimi təxribatçı fikrini qeyd edib. Göründüyü kimi, dövlət tərəfindən maliyyələşən ”Komsomolskaya pravda” qəzeti Rusiya dövlətinin, Kremlin Azərbaycanın ərazi bütövlüyünü tanıması mövqeyinə, Prezident Vladimir Putinin İkinci Qarabağ müharibəsindən dərhal sonra verdiyi müsahibədə ”Qarabağ Azərbaycanın ayrılmaz ərazisidir və hər zaman belə olub” bəyanatına qarşı çıxıb. Buna Ermənistanda və Qarabağda ermənilərin kütləvi etiraz etməməsi isə ”Komsomolskaya pravda”da təəccüb doğurub. Məqalənin ən maraqlı hissəsi isə Ermənistan Baş naziri Paşinyanın sülh sazişini tezliklə imzalamağa razılıq verməsindən bəhs olunduğu hissədir. Müəllif bildirir ki, əgər bu sənəd imzalansa, o zaman Cənubi Qafqazda tektonik katalizator olacaq. Deyəsən, Qarabağda separatçı toxumu səpənlər özlərini yavaş-yavaş büruzə verirlər.

**Tanınmış jurnalist, siyasi şərhçi Fuad Abbasov ”Şərq”ə bildirib ki, ”Komsomolskaya pravda” qəzeti heç bir halda Rusiyanın rəsmi mövqeyini bildirə bilməz. Ekspert bildirib ki, Rusiyanın indiki mətbuatı pul qarşılığında istənilən məqaləni nəşr etməyə və tirajlamağa hazırdır:** ”Komsomolskaya pravda”, ”Moskovski komsomoleç”, ”Vedomosti”, ”Kommersant” və digərləri məqalələri sifariş üzərinə yayımlayırlar. Əgər belə bir məqalə Rusiyanın rəsmi media orqanında dərc olunsaydı, o zaman buna daha ciddi və dövlət səviyyəsində etirazımızı bildirərdik. ”Komsomolskaya pravda”da gedən yazı böyük ehtimalla ”Rusiya erməniləri İttifaqı”nın rəhbəri, Paşinyan əleyhdarı Ara Abramyan tərəfindən təlimatla yazılıb. Həmin məqalədə Azərbaycanın ərazi bütövlüyündən daha çox Paşinyan hökumətinin siyasətinin tənqid olunmasına yer verilib. Yazıda diqqət çəkilir ki, Paşinyan hökuməti Qarabağı Azərbaycana təslim etdi, qodarma ”Artsax”ın ”statusunu” qəbul etmədi, Vaşinqtondan gələn planların icrası ilə məşğul oldu və s. İstər Abramyanın, istərsə də Rusiyadakı erməni lobbisinin qarınağrısı Paşinyandır. Məqsəd baş naziri ”vurmaqdır”. Paşinyan Azərbaycanın ərazi bütövlüyünü Praqa görüşündə qəbul etdiyini açıqlasa da, erməni lobbisi, diasporası bunu qətiyyən qəbul etməyəcəyini vurğulayır. Yəni ermənilər ermənilərə qarşı rus mətbuatında mübarizə aparır”.

**F.Abbasov bildirib ki, sözügedən qəzetlərdə Ermənistanın Azərbaycana qarşı təxribatları, terrorları, mülki insanların qətlə yetirilməsi, minaların basdırılması və başqa məsələlərlə bağlı yazıların dərc olunması yaxşı olardı:** ”Belə məqamları təkrar-təkrar bizictimaiyyətinin diqqətinə çatdırmaq lazımdır. Təəssüflər olsun ki, Rusiyada nə güclü diasporamız, nə də təsir imkanları geniş olan mətbuat orqanlarımız var. Ona görə də adekvat cavab verə bilmirik”.

**İsmayıl Qocayev**



# Gürcüstana səfər tam yerinə düşdü

## Azərbaycanla Gürcüstanı strateji tərəfdaşlıq birləşdirir

**“Bu gün strateji tərəfdaşlıq əlaqələrimiz müttəfiqlik səviyyəsinə yüksəlib. Çünki bir çox sahələr üzrə biz fəal əməkdaşlıq edirik”.**

”Şərq” xəbər verir ki, bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstanda mətbuata bəyanatında bildirib.

Dövlətimizin başçısı beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan və Gürcüstanın bir-birini daim dəstəklədiyini qeyd edərək deyib ki, eyni zamanda, ikitərəfli formatda həyata keçirilən bir çox önəmli layihələr təkcə ölkələrimiz üçün deyil, bölgə üçün, bütün Avropa üçün xüsusi əhəmiyyət daşıyır.

**Bunun Prezident İlham Əliyevin Gürcüstana sayca 10-cu səfəri olduğunu deyən BDU-nun professoru, politoloq Əlimusa İbrahimov bildirib ki, bu, ölkələrimizi mehriban qonşuluq və tarixi dostluq əlaqələri, siyasi, iqtisadi, humanitar və digər sahələrdə strateji tərəfdaşlıq əlaqələri birləşdirdiyini isbatlayır:** ”Ermənistanla Azərbaycan arasındakı proseslərdən sonra Gürcüstana səfər tam yerinə düşdü. Azərbaycan Ermənistanla müəyyən razılıqlara gəlmək ərəfəsindədir. Yaxın gələcəkdə sülh müqaviləsinin imzalanacağı gözlənilir. Azərbaycan-Gürcüstan münasibətlərini də inkişaf etdirmək zəruridir. Ölkəmiz hər bir qonşusu ilə əlaqələrini yüksələn xətlə inkişaf etdirir”.

*Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də Gürcüstana işgüzar səfərə gəlib. Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin dəvəti ilə həyata keçirilən bu səfər iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünə təsadüf edir.*

**Aygün Tahir**

# “Ermənistanın düşdüyü vəziyyət İranın iştahasını artırıb”

## Aydın Hüseynov: “Maraqlısı budur ki, İran öz daxilindəki gərginliklərin səbəbini də Arazın bu tayında axtarır”

**İranın quru qoşunlarının Qərbi Azərbaycanda hərbi təlimləri davam etməkdədir. Təlimlər bölmələrin gecə əməliyyatlarına döyüş hazırlığının artırılması məqsədilə Pasve və Piranşəhr yaşayış məntəqələri ərazisində də keçirilir. Bu yaşayış məntəqələri Türkiyə və İraqla sərhəddir.**

İranın Xarici İşlər Nazirliyinin sözçüsü Nasir Kənani deyib ki, Araz çayı yaxınlığında keçirilən son təlimlərlə bağlı Azərbaycan rəsmiləri məlumatlandırılıb. O qeyd edib ki, İranın siyasi və hərbi rəsmiləri son hərbi təlimlər haqqında danışıb və onun məqsədlərini açıqlayıblar: ”Təlimlər əvvəlcədən planlaşdırılıb və İran Silahlı Qüvvələrinin periodik təlimləri əsasında həyata keçirilir. Təlimlər əslində heç bir qonşu dövlətə qarşı yönəlməyib, qonşularla münasibətlərin inkişafı bizim üçün prioritetdir”. Kənani vurğulayıb ki, ortaq sərhədlərin təhlükəsizliyi İran İslam Respublikası üçün strateji seçimdir: “Bu baxımdan İran təlimlərinin mesajını almalı olanlar, başqa sözlə desək, bu təlimlərin birbaşa auditoriyası olanlar təbii ki, mesajı aldılar və alacaqlar”. XİN rəsmisi qeyd edib ki, İran regional beynəlxalq sərhədlərin dəyişməməsinə, regionun geosiyasətinin sabitliyinə təkid edir.



**Millət vəkili Aydın Hüseynov bildirib ki, İran hakimiyyətinin Ermənistan sevgisi heç kimə sirr deyil. Parlament üzvü deyib ki, Birinci Qarabağ müharibəsi, Vətən müharibəsi və nəhayət, post-münaqişə dövründə bununla bağlı çoxlu sayda nümunələr var.** Hər iki müharibə dövründə Ermənistana mütəmadi hərbi və iqtisadi yardımlar edilib. Bu ölkəni dəstəkləyən açıq siyasi bəyanatlar verilib: ”Görünən odur ki, İranın erməni sevgisi, onun Azərbaycan əleyhinə sistemli fəaliyyəti ilə paralel inkişaf edir. Azərbaycanın qələbəsini və güclənməsini həzm edə bilməyən İran Ermənistana hərtərəfli dəstəyini artırır. Qafanda konsulluq açan İranın Xarici işlər naziri Abdullahianın “Qafanlılara demək istəyirəm ki, narahat olmasınlar, biz erməni xalqı üçün buradayıq” sözləri, ticarət dövriyyəsinin artırılması vədləri göstərir ki, Ermənistanın düşdüyü vəziyyət İranın iştahasını qabardıb”.

Deputat vurğulayıb ki, İran Vətən müharibəsindən sonra yaranan yeni geosiyasi vəziyyətdə özünə yer etmək istəyir: ”İran buna Azərbaycanı hədəf alaraq nail olmaq istəyir. İşğalçı siyasətinin bədəlini ağır şəkildə ödəyən Ermənistan isə “dənizdə boğulan ilana sarılar” məsəlində olduğu kimi İrana meydan verir. Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxladığı dövrdə bir dəfə də olsun Araz çayı ətrafında hərbi təlim keçirməyən İran indi bunu ənənəyə çevirib. Müxtəlif səviyyəli rəsmilər də açıqlamalarında bu təlimlərin Azərbaycana qarşı olduğunu gizlətmirlər. Maraqlısı budur ki, İran öz daxilindəki gərginliklərin səbəbini də Arazın bu tayında axtarır. Uşaqları, qızları qətlə yetirməklə daxildəki etirazların qarşısını ala bilməyən Tehran hakimiyyətinə indi bütün bunların “günahkarı” olan xarici bir “düşmən” lazımdır. Görünən odur ki, İran hakimiyyətini Ermənistanla təkcə Azərbaycanın güclənməsini həzm etməmək birləşdirmir. Uşaq qatilliyi, zorakılıq kimi ortaq xüsusiyyətləri də var”.

**İsmayıl**

# Lalə Şövkət yeganə xanım idi

## İndi nüfuzlu qadınlarımız partiya sədri olmaq istəmirlər




**Sahib Məmmədov:**
“QHT rəhbəri olan xanımlarımız partiya sədri olan kişilərdən daha güclüdür”



**Novella Cəfəroğlu:**
“Olsa yaxşı olardı, qadınlarımız kişilər kimi hansısa maraqlar xatirinə öz düşüncələrini, xarakterlərini satmırlar”



**Azərbaycanda 51.1 faiz insan qadın liderli partiyaların olmasını istəyir. Bu barədə Sosial Tədqiqatlar Mərkəzinin açıqladığı rəy sorğusunda bildirilib.**

Qeyd edək ki, qadınların siyasi həyatda fəal olduğu ölkələrdə idarəetmədə cəmiyyətin müxtəlif qrupları nəzərə alınır və təmsil olunur, ölkənin mövcud vəziyyəti və gələcəyi ilə bağlı yeni, daha əhatəli təkliflər səslənir, gender bərabərliyi müzakirəsi isə nəzəri müstəvidən pratiki müstəviyə keçmiş olur.

Qadınların rəhbər rollarda olmasının digər müsbət tərəfi odur ki, daha çox qadın ənənələrin və stereotiplər nəticəsində inkişaf edə bilməyən və potensialını reallaşdıra bilməyən qızlara nümunə vermiş olurlar və həmin qızları da gələcəkdə rəhbər rollarda olmağa həvəsləndirirlər.

Azərbaycan isə mühafizəkar cəmiyyət olduğundan bu, qadınların ictimai-siyasi həyatda, o cümlədən idarəetmədə fəallığına təsir edir.

**Maraqlıdır, cəmiyyətdə böyük bir kütləni ətrafına toplamaq gücünə sahib qadınlar varmı? Kimlər partiya lideri ola bilər?**

**Vətəndaşların Əmək Hüquqlarının Müdafiəsi Liqasının sədri Sahib Məmmədov ”Şərq”ə açıqlamasında deyib ki, Lalə Şövkətdən başqa qadın partiya sədri xatırlamır. Amma bunun səbəbi Azərbaycanda qadınların ictimai- siyasi passivliyi ilə bağlı deyil. Sadəcə, Azərbaycanda belə bir ənənə olmayıb və sonradan da formalaşmayıb:** ”Siyasi partiyaların təşəkkül tarixinə baxsaq, bütün partiyaların idarə heyətində kişilər olub. Azərbaycan Xalq Hərəkatının bütün liderləri kişilər idi. Sonradan xanımlarımız Hərəkata qoşulsa da rəhbər postlar kişilərə məxsus idi. Xanım Xəlilova, Novella Cəfəroğlu kimi aktiv qadınlarımız vardı. Amma onlar özləri məqsədli şəkildə siyasi yox, daha çox ictimai proseslərə yönəldilər. Hər iki xanım və onlarla eyni cəbhədə mübarizə aparan digər xanımlarımız istəsələr böyük bir kütləni öz arxalarına alıb siyasi partiya yaradar və çox gözəl də idarə edərdilər. Bu da az əvvəl dediyim kimi Azərbaycanda qadın liderli siyasi partiya ənənəsi olmadığından irəli gəlir. Görünür, bu status bizim xanımlarımızın diqqətini cəlb etməyib. Sonrakı mərhələdə isə siyasi partiyaların ictimai-siyasi proseslərə təsir imkanları zəiflədi, struktursuz partiyalar yaranmağa başladı. Bir ara ”dəb” düşdü, ətrafına 5 nəfər toplayan adam bir təşkilat formalaşdırıb özünü siyasi partiya lideri elan edirdi. Hansı ki nə mərkəzi strukturları, nə də regional bölmələri vardı. Qadınlar isə daha çox konkret işlər görməyi sevdiyindən formal xarakterli partiyalar onlar üçün cəlbedici olmadı. Aktiv qadınlarımız özlərinin Qeyri-Hökumət Təşkilatlarını yaradıb ictimai proseslərə təsir etməyə başladılar. Çox da uğurlu işlər gördülər. QHT sədri olan xanımlarımız öz çəkisinə, ölkədə baş verən, ictimai rəyə təsir imkanlarına və dövlətçilik naminə apardıqları mübarizəyə görə partiya sədri olan kişilərdən daha güclüdür. Azərbaycanın ictimai həyatında Novella Cəfəroğlu, Tənzilə Rüstəmxanlı kimi öz çəkisi və nüfuzu olan onlarla qadınlarımız var. Mən bu xanımları güclü bir partiyanın sədri kimi görürəm, amma onlar özləri partiya sədri olmaq istəyirmi? Məncə, yox! Çünki bu xanımların hər biri ayrı-ayrılıqda 10 partiya sədrindən daha artıq işlər görüblər. Bu xanımlar həm ölkədə, həm də beynəlxalq aləmdə daha çox tanınır və sözünün kəsəri var. Məhdud resurslarla QHT sektoruna liderlik edib, beynəlxalq arenada söz sahibi olan qadınlarımız üçün hansısa bir siyasi partiya sədri olmaq ”iki vur iki”dir”.

**Qadınların hər zaman aparıcı qüvvə olduğunu bildirən Dilarə Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri, hüquq müdafiəçisi Novella Cəfəroğlu isə deyib ki, Azərbaycanda bilikli və savadlı qadınlar həmişə ön sıralarda olublar, öz fəaliyyətlərində ciddi uğurlar qazanıblar:** “Şəxsən mən heç vaxt partiya sədri olmaq istəməmişəm. Amma Azərbaycanda qadın liderli siyasi partiyaların olmasını çox istəyərdim. İnanıram ki, belə bir partiya olsa çox güclü və ictimai rəyə təsir imkanları olardı. Əgər hansısa qadın bu istiqamətdə irəli addım atsa və partiya sədri olmaq istəsə, həmin partiyanın təşkilatlanması və strukturunun formalaşması üçün əlimdən gələn köməyi edərəm. Qadının siyasiləşməsinin, siyasi aktivliyinin yüksəlməsi cəmiyyətdəki proseslərin siyasi tarazlığı dinamikasının inkişafında vacib şərtdir. Azərbaycanda milli mənafe və dövlətçilik maraqlarının təmsilçisi olmaq kimi müqəddəs amalı özünün siyasi idealı, əsas fəaliyyəti hesab edən qadınlarımız öz mövqelərinə sadiqdirlər və ictimai-siyasi prosesin fəal iştirakçısıdırlar. Qadınlarımız kişilər kimi hansısa maraqlar xatirinə öz düşüncələrini, xarakterlərini satmırlar. İctimai-siyasi nüfuzu olan xanımlarımızın hamısı mərd və mübariz xarakterlidir. Onlar heç vaxt yalan danışıb milli maraqlara zidd addım atmırlar. Azərbaycan qadını tarix boyu öz ağlı, zəkası, namusu, qeyrəti, isməti, fədakarlığı, Azərbaycan xalqının milli xüsusiyyətlərinə sadiqliyi ilə tanınıb. Qadın ailə saxlayan bir insandır. Necə ki ailədə bütün yükü öhdəsinə götürüb övladlarının rifahı üçün fədakarlıq göstərir. Ölkənin milli mənafeyi üçün də bizim qadınlar cəmiyyətdə kifayət qədər əhəmiyyətli rol oynayırlar.

Mənim isə kifayət qədər güclü və ictimai proseslərdə aktiv olan qeyri-hökumət təşkilatım var. Bizim təşkilatın fəaliyyəti heç də partiyaların gördüyü işlərdən aşağı deyil. Əksinə, seçkilər vaxtı mənim qızlarım (QHT üzvləri) bütün partiya üzvlərinə dərs keçib, seçki qaydaları ilə bağlı maarifləndirirlər”.

**Şəymən Bayramova**

# “İlham Əliyevin bəyanatı çox müsbət, ümidverici idi”

## ABŞ səfiri Prezidentin Gürcüstan-Azərbaycan-Ermənistan məsləhətləşmələrinə dair bəyanatını təqdir edib



**Prezident İlham Əliyevin Gürcüstan-Azərbaycan-Ermənistan məsləhətləşmələrinə dair bəyanatı çox müsbət və ümidvericidir.**

APA-nın yerli bürosu xəbər verir ki, bunu ABŞ-ın Gürcüstandakı səfiri Kelli Deqnan jurnalistlərə açıqlamasında deyib. Səfir qeyd edib ki, region liderlərinin görüşü hər zaman müsbət olur.

”Gürcüstanın vasitəçi roluna gəlincə, biz bir il əvvəl Azərbaycan-Ermənistan münaqişəsindən sonra müəyyən addımların atıldığını və məhbusların azad edilməsində Gürcüstanın oynadığını rolu çox yaxşı xatırlayırıq. Bu, Gürcüstanın bu prosesdə uğurlu vasitəçilik hekayəsi idi. Bununla yanaşı, bu ölkələr arasında əməkdaşlıq və daha çox dialoqun aparıla biləcəyi bir çox fərqli sahələr var. Bu, istər enerji, istər iqtisadiyyat, istərsə də qarşılıqlı əməkdaşlığa inkişaf etdirilməsi mümkün olan digər sahələrdir. Prezident İlham Əliyevin bəyanatı çox müsbət, ümidverici idi”, - deyə Kelli Deqnan bildirib.

# Britaniyanın yeni Baş naziri seçilib

## Liz Trass Rişi Sunakı təbrik edib



**Rişi Sunak Britaniyanın yeni Baş naziri seçilib.**

APA-nın Britaniya bürosunun xəbərinə görə, liderlik yarışında onun rəqibi Peni Mordont geri çəkilib. Bununla da Rişi Sunak yeni Baş nazir seçilib.

O, Boris Consonun hakimiyyəti zamanı maliyyə naziri vəzifəsini icra edib.

Bir neçə gün əvvəl Baş nazir vəzifəsindən istefa verən Liz Trass dünən günortadan sonra Rişi Sunakı liderlik uğrunda yarışda qalib gəldiyinə və Mühafizəkarlar Partiyasının lideri təyin olunması münasibətilə təbrik edib.

APA-nın Britaniya bürosunun xəbərinə görə, Liz Trass Rişi Sunaka tam dəstəyinin olduğunu deyib.

Qeyd edək ki, Rişi Sunak hindistan əsillidir. Onun ailəsi 1960-cı illərdə Britaniyaya köçüb.

# Azərbaycan Rusiyaya etiraz notası verib

## Sənəddə Birinci Kanalda səslənən açıq-aşkar antiazərbaycan çıxışlar pislənilib

**Azərbaycanın səfirliyi Rusiya Xarici İşlər Nazirliyinə 2022-ci il oktyabrın 20-21-də Rusiyanın Birinci Kanalında yayımlanan ”Böyük oyun” verilişinin efirində rusiyalı politoloqlar və erməni əsilli ekspertlər tərəfindən səsləndirilmiş açıq-aşkar antiazərbaycan çıxışları, Azərbaycan Respublikasının ərazi bütövlüyünün şübhə altına alınması və dövlət xəritəsinin təhrif edilməsi ilə əlaqədar rəsmi sərt etiraz notası göndərib.**

**Bu barədə “Şərq” Azərbaycanın Rusiyadakı səfirliyinə istinadən məlumat verir.**

Notada xüsusi vurğulanıb ki, verilişin qonaqları öz çıxışları ilə Ermənistan cəmiyyətində revanşist qüvvələri keçmişdə qalan münaqişəni canlandırmağa təhrik edir və separatizmi açıq şəkildə dəstəkləməklə, iki xalq arasında düşmənçilik toxumu səpirlər.

Səfirlik nazirliyin diqqətinə çatdırıb ki, dövlət telekanalında qərəzli bəyanatlardan istifadə edilməsi və aşkar siyasi təxribatlara yol verilməsi Rusiya Federasiyasının Prezidenti tərəfindən dəfələrlə səsləndirilmiş və Azərbaycanın ərazi bütövlüyünə dəstəyin ifadə olunduğu Rusiyanın rəsmi mövqeyinə zidd olmaqla yanaşı, həm də regionda uzunmüddətli sülhün, sabitliyin və təhlükəsizliyin təmin edilməsi istiqamətində atılan addımlara xələl gətirir.

Sənəddə qeyd olunub ki, regionda mövcud olan kövrək sülh şəraitində gərginliyə səbəb ola biləcək və vəziyyəti daha da gərginləşdirə biləcək təxribatların qarşısının alınmasında KİV nümayəndələrinin üzərinə xüsusi məsuliyyət düşür.

Həmçinin təəssüflə vurğulanıb ki, sözügedən tok-şounun aparıcısı və bu ”tamaşa”nın birbaşa iştirakçılarından biri ”Vahid Rusiya” fraksiyasının üzvü, Rusiya Federasiyası Dövlət Dumasının beynəlxalq məsələlər üzrə komitəsinin sədrinin birinci müavini Vyaçeslav Nikonovdur. Rusiyanın hakim partiyasının nümayəndələrinin bu cür davranışı Azərbaycan-Rusiya strateji tərəfdaşlığı və müttəfiqlik qarşılıqlı fəaliyyətinin ruhuna ziddir, eləcə də ikitərəfli münasibətlərə əhəmiyyətli dərəcədə zərər yetirir.



Səfirlik bir daha Rusiya tərəfinin diqqətinə çatdırıb ki, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında 22 fevral 2022-ci il tarixli müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin müvafiq müddəalarında strateji tərəfdaşlığa və müttəfiqlik münasibətlərinə xələl gətirən hər hansı hərəkətlərdən və dövlətlərin suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə qarşı yönəlmiş fəaliyyətdən çəkinməyə çağırış əks olunmaqla, separatizmə qarşı mübarizədə birgə səylər göstərilməsi nəzərdə tutulur.

Azərbaycan tərəfi Rusiyadan Rusiya KİV nümayəndələrinin təxribat xarakterli hərəkətlərinin dayandırılması və gələcəkdə təkrarlanmaması üçün təxirəsalınmaz tədbirlər görməyi tələb edib.

# Biz tanımırıq!

## ATƏT-in "missiyası"nın heç bir hüquqi əsası yoxdur



**Ötən gün ATƏT-in ehtiyacların qiymətləndirilməsi qrupu Zəngəzur vilayət administrasiyasının nümayəndələri ilə görüşüb. Vilayət administrasiyasının mətbuat xidmətinin məlumatına görə, ATƏT nümayəndələri vəziyyətlə tanış olmaq üçün sərhədyanı icmalara baş çəkiblər.**

Xatırladaq ki, Ermənistanın Xarici işlər naziri Ararat Mirzoyan təşkilata sədrlik edən Polşanın nümayəndəsi, polkovnik Robert Arkadiuş Tkaçikin rəhbərlik etdiyi ATƏT missiyası ilə görüşüb. Missiyanın göndərilməsi barədə qərar təşkilatın Nazirlər Şurasının bütün ölkələrin razılığı ilə qəbul edilmiş qərarları əsasında ATƏT-ə sədrlik edən ölkə tərəfindən qəbul edilib. Missiya oktyabrın 21-də gəlib və 27-nə qədər Ermənistanda olacaq.

**Siyasi şərhçi Asif Nərimanlı deyib ki, missiyanın qiymətləndirəcəyi vəziyyətin bir tərəfi Azərbaycandır və rəsmi Bakının açıqlamasından məlum olur ki, təşkilatda bu məsələ ümumiyyətlə müzakirə olunmayıb, hər hansı konsensus yoxdur.** Ekspertə görə, konsensusla qəbul edilməyən "missiya"nın hüquqi tərəfinin olmaması ilə yanaşı, siyasi tərəfi diqqət çəkir və birdən çox məsələni ön plana çıxarır: "Birincisi, ədalət və hüququn yox, siyasi maraqların əsas götürülməsidir. Azərbaycan torpaqları işğalda olduğu dövrdə Bakının əsas istəklərindən biri münaqişənin həlli prosesində vasitəçilik missiyasının təşkil edildiyi ATƏT-in işğal altındakı ərazilərə faktaraşdırıcı missiyasını göndərməsi idi. 2005-ci il və 2010-cu illərdə iki missiya ilə bağlı razılaşma əldə olunması üçün illərlə vaxt lazım oldu, lakin heç bir missiya göndərilmədi. 2020-ci ilə qədər Azərbaycanın növbəti belə missiyası ilə bağlı müraciəti yenə də Ermənistanın müqaviməti nəticəsində baş tutmadı. Bakının göndərilməsini istədiyi missiyanın baş tutmamasının səbəbi ümumi konsensusun olmaması idi və ATƏT rəhbərliyi bunu əsas gətürürdü. İndi isə müzakirə edilmədən, Ermənistanın təşəbbüsü ilə "missiya"nın göndərilməsi bu təşkilatın siyasiləşdiyini, lazım olanda öz təməl prinsiplərini çeynədiyini təsdiq edir".

**A.Nərimanlı bildirib ki, "missiya"nın mandatı yoxdur:** "ATƏT-də hansısa missiyanın göndərilməsi üçün məsələ ümumi müzakirəyə çıxarılır və konsensusla qəbul edildiyi halda qərar verilir. Ermənistana göndərilən "missiya" ilə təşkilatın kollektiv qərarverici orqanı tərəfindən müzakirə edilərək, qəbul edilməyib. Bu baxımdan, "missiya" ATƏT-in mandatına malik deyil və təşkilatla əlaqələndirilə bilməz. Bu, sadəcə Ermənistanın müraciəti əsasında ATƏT Katibliyinin qəbul etdiyi qərara əsaslanır. Müzakirə və konsensusun olmaması ATƏT daxilində "missiya" ilə bağlı fikir ayrılığının olduğunu ortaya çıxarır. Avropa İttifaqının Ermənistana missiya göndərməsinin ardınca, ATƏT-in də belə bir təşəbbüsə əl atması bu məsələni aktuallaşdırır. Əgər bölgədə Aİ missiyası varsa, ATƏT-ə ehtiyac olmamalıdır. Ermənistana "missiya" göndərən ATƏT-in indiyə qədər heç bir münaqişənin həllində nəticə əldə etmədiyi faktı da burada ayrıca diqqət çəkir. Təşkilat Ermənistan-Azərbaycan münaqişəsində faktiki uğursuzluğuna rəğmən, yenidən iki ölkə arasındakı məsələlərə müdaxilə etməyə cəhd göstərir".

**İsmayıl**

# Türkiyənin Şuşada konsulluq açması bölgədə riskləri minimuma endirəcək

## Azərbaycanın Qarabağda nəzarəti tam şəkildə əlinə alması Zəngəzur dəhlizi üçün böyük imkanlar yaradar




**"Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Zəngilana səfəri zamanı jurnalistlərin suallarını cavablandırarkən bildirib ki, "Şuşada baş konsulluq açırıq". Türkiyə prezidentinin bu açıqlaması bir neçə cəhətdən əhəmiyyət kəsb edir".**

*Bu sözləri "Şərq"ə politoloq Samir Hümbətov deyib. Ekspert bildirib ki, Türkiyə İranın Qafan konsulluğuna cavab addımı atır:* "Bölgədə tərəflər arasında geosiyasi və geostrateji savaş daha da dərinləşir ki, burada da Azərbaycan qardaş Türkiyə ilə eyni cəbhədə yer alacaq. Türkiyənin Şuşada konsulluq açması yeni hadisə deyildi və bu hadisə gözlənilən idi. Analitik qeyd edib ki, Türkiyənin Şuşada konsulluq açması Şuşanın əbədi təhlükəsizlik təminatı olmaqla yanaşı, bir sıra məqsədlərə də aydınlıq gətirəcək: "Bununla da bəzi güclərin, eyni zamanda Ermənistandakı revanşist güclərin Şuşa ilə bağlı çirkin niyyətlərinin üstündən xətt çəkiləcək. Türkiyənin Şuşada açacağı konsulluq Azərbaycanla yanaşı bütün türk dünyası üçün mənəvi mərkəz halına gələ bilər. Eyni addımı digər türkdilli dövlətlərin də atacağı istisna edilmir. Həmçinin, dost və müttəfiq dövlətlərin də bənzər təşəbbüslə çıxış etməsi gözləniləndir. Türkiyə ilə yanaşı bir sıra dövlətin də Şuşada konsulluq açması Azərbaycanın Qarabağ bölgəsində müharibə riskini minimuma endirər, bölgəyə qalıcı sülhü gətirər".

**S.Hümbətova görə, Şuşada konsulluğun açılması ilə şəhər turistik baxımından da vacib əhəmiyyətə malik yerə çevrilər:** "Bu da Azərbaycanın iqtisadi imkanlarını artırmış olar. Azərbaycanın Qarabağda nəzarəti tam şəkildə əlinə alması Zəngəzur dəhlizi üçün böyük imkanlar yaradar. Həm də dünyanın diqqətini regionumuza çevirər. Şübhəsiz, bu məqamların heç biri Türkiyə və Azərbaycanı özünə düşmən bilən, əvəzində Ermənistanla xoş münasibət quran İran üçün heç də arzuolunan deyil".

**İsmayıl**

İsmayıl Qocayev

# İrəvanda "Moskva", "Kreml" qışqıranların sayı azalır

## Erməni toplumu onlara "dövlət" bəxş etmiş Rusiyanı çox qısa müddətdə satdı, xəyanət etdi

**Ermənistanda Rusiya əleyhinə çıxışlar artmaqdadır. Tanınmış erməni siyasi analitik Samvel Aqanesyan "Pressinq" verilişinin efiri zamanı deyib ki, artıq Rusiya keçmiş olur. Onun sözlərinə görə, Ermənistanda "Moskva", "Kreml" qışqıranlar azalıb:**

"Hamı anlayır ki, Rusiya çökür və özü ilə birlikdə Belarusu və Ermənistanı da batıracaq. Bir müddət sonra Rusiya özü Ermənistandan ordusunu çıxaracaq. 102-ci baza da gedəcək, sərhədlərimizi qoruyan silahlı qüvvələri də. Bəs sual yaranır, ruslar getsə, Ermənistanın sərhədlərini kim qoruyacaq? Əslində guya rus ordusu bizim sərhədləri qoruyurdu ki? Onların işi pakistanlı sərhəd pozucularını tutmaqdan ibarət idi, vəssalam. Bizim artıq yeni imkanlarımız var - Hindistan və yaxud İran. İnanın mənə ki, İrəvan sorğu göndərsə, Tehran Ermənistan sərhədlərini qorumağa razı olar, çünki bu, onların da planlarına uyğun olacaq".

Erməni politoloq Razmik Akopcanyan da deyib ki, Rusiya məğlubiyyət yolundadır, bundan sonra dünya tamam başqa cür olacaq. Onun fikrincə, Ermənistan indi Rusiyaya qarşı çıxanlarla dost olmalıdır: "Ukrayna ordusunun cəbhədəki uğurları hər şeyi kökündən dəyişdi. Bu təkcə Avropada deyil, Mərkəzi və Orta Asiyada da müşahidə olunur. Və hər kəs yeni tərəfdaşlar seçir. Biri Çinə, Hindistana, biri Türkiyəyə yönəlir. Yəni bu gün bütün dünya Putindən sonrakı mərhələyə - Rusiyanın zəifləməsi dövrünə hazırlaşır". Akopcanyanın sözlərinə görə, Ermənistan da bu yolla getməkdən çəkinməməlidir: "Putinin Rusiyası keçmişdir və biz gələcək haqqında düşünməliyik. Hansısa mərhələdə Ermənistan hətta Türkiyə və Azərbaycanla da eyni qayığa düşə bilər. Böyük siyasətdə belə olur. Rusiyanın qaçılmaz məğlubiyyətindən sonra dünyada hər şey başqa cür olacaq".

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev "Şərq"ə açıqlamasında deyib ki, İkinci Qarabağ müharibəsindən sonra Ermənistanda düşünməyə başlayanların sayı artıb.** Professor bildirib ki, reallığı dərk edən ermənilər gördülər ki, yüz illər boyunca erməni kilsəsi və terror təşkilatlarının öz maraqlarını təmin etmək, iaşə toplamaq və parazit kimi yaşamaq üçün gündəmə gətirdikləri "Böyük Ermənistan" iddiası cəmi 44 gündə darmadağın edildi:



"Azərbaycan Ordusu çox qısa zamanda yüzillik mifləri elə formada dağıtdı ki, ermənilər həm "Böyük Ermənistan" ideyasının puç olduğunu dərk etdilər, həm də torpaqlarımız hesabına yaradılmış kiçik Ermənistanın təhlükəli yol yürüdüyünü görməyə başladılar. Erməni ekspertlərin fikirləri müəyyən mənada reallıqları əks etdirir. Ölkənin televiziya kanallarında, mediada çıxış edən analitiklər Ermənistan dövlətinin taleyindən nigaran olduqlarını, dövlətçiliyi düşündüklərini söyləyirlər. Ancaq məsələ ondadır ki, indi barəsində danışdıqları "dövləti" onlar üçün qurub-yaradan məhz Rusiya olub. Əvvəl çar imperiyası, sonra SSRİ Azərbaycanın tarixi torpaqlarını ermənilərə peşkəş çəkərək "Ermənistan dövləti" qurublar. Bəs indi nəyi görürük? Erməni toplumu onlara "dövlət" bəxş etmiş Rusiyanı çox qısa müddətdə satdı, xəyanət etdi. Ermənilərin dəfələrlə təkrarlanmış satqınlığı Rusiya üçün dərs olmalıdır".

**C.Nuriyev vurğulayıb ki, Tehran heç vaxt Ermənistan sərhədlərini qorumayacaq. Ancaq rus ordusunun çıxmağını ona görə istəyirlər ki, Ermənistan üzərindən narkotrafiki sərbəst şəkildə davam etdirsin:** "Qərblə arası yaxşı olmayan, sanksiyalara məruz qalan İranın Ermənistanı hansı məqama kimi, hansı səviyyədə qoruyacağı özü şübhəlidir. Tehran hökuməti öz maraqları çərçivəsində addımlar atır. Hindistanın heç özünə faydası yoxdur. 1 milyard 400 min əhalisi olan, nüvə silahına sahib Hindistan 210 milyon əhaliyə malik Pakistan qarşısında demək olar ki, aciz qalıb. Ara-sıra Ermənistana silah, hərbi texnika yardımı etsə də, rəsmi Dehlinin İrəvana daim siyasi-hərbi dəstək verəcəyi inandırıcı deyil. Ötən əsrdən qalmış köhnə rus hərbi texnikası ilə silahlanmış ölkələr müasir silah-sursatlarla təchiz olunmuş Azərbaycan və Türkiyə orduları qarşısında tab gətirə bilməz. İranın son dönəmdə düşdüyü vəziyyət, xarici-daxili problemləri hamıya bəllidir. Hindistanın isə döyüşmək təcrübəsi, müharibə uğurları yoxdur. Özü iki yüz ilə yaxın Böyük Britaniyanın nökəri olub. İran da türklərin nökəri olub. Nökərin təhlükəsizlik üçün başqa bir nökərə müraciət etməsi gülünc və absurddur".

# İran əməllərindən nəticə çıxarmalıdır

## Güney Azərbaycandakı 40 milyonluq soydaşımız hər an Azərbaycanın müdafiəsinə qalxacaq



**”Təkcə Azərbaycanın hüdudlarından kənarda yaşayan azərbaycanlıların sayı Azərbaycanda yaşayanlardan xeyli çoxdur, bir neçə dəfə çoxdur”.**

Bu sözləri ötən həftə Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdad Amreyevi qəbul edərkən deyib. Ölkəmizin başçısı qeyd edib: ”Buna görə də, əlbəttə, onların təhlükəsizliyi, hüquqları, salamatlığı bizim üçün çox böyük əhəmiyyət kəsb edir”.

**Məsələyə münasibət bildirən Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları” Mərkəzinin sədri Samir Hümbətov ”Şərq”ə açıqlamasında vurğulayıb ki, Prezident bu açıqlaması ilə İrana sətiraltı mesaj ötürüb:** ”Ölkə başçısı İrana ”sizdə yaşayan hər 10 vətəndaşdan 5-i bizim soydaşımızdır və biz onların problemlərini yaxından izləyirik” deməklə, Ermənistanla açıq münasibət qurub, bizə qarşı aqressiv münasibət göstərərsə, ziyanlı çıxacağının xəbərdarlığını edir. Rəsmi Tehran bundan nəticə çıxarmalı və Güney Azərbaycandakı 40 milyonluq soydaşımızın hər an Azərbaycanın müdafiəsinə qalxmağa hazır olduğunu dərk etməlidir. Biz bu müdafiənin ən yaxşı nümunəsinə 2-ci Qarabağ savaşında şahid olduq. Vətən müharibəsi zamanı İran, rus texnikalarını Ermənistana ötürən zaman, güneyli soydaşlarımız bunun qarşısını aldı. Bu da onu göstərir ki, İrandakı soydaşlarımız da Prezident İlham Əliyevin siyasətini dəstəkləyir və onun siyasi kursuna ümid bəsləyirlər. Çünki onlar bütöv Azərbaycan ideyasının bir gün gerçəkləşəcəyini başa düşürlər. İranın Azərbaycana qarşı ikiüzlü və aqressiv siyasət yürütməyə davam etməsi isə rəsmi Bakını tədbir görmək faktı qarşısında qoyur”.

**Ekspert qeyd edib ki, Cənubi Azərbaycan türkləri bizim qan qardaşlarımızdır və onlarla münasibətləri daha da dərinləşdirməliyik: ”Bu isə artıq bizim siyasi konsepsiyamızda yer alır.** Ölkə başçısının səsləndirdiyi bu tezislər isə İranı atdığı addımlara fikir verməyə və qərarlarını ”100 ölçüb bir biçməyə” vadar edəcək. Əks halda biz İrandakı soydaşlarımızın vəziyyətini beynəlxalq ictimaiyyətə çıxarda bilərik. Bu bizim hüququmuzdur. Prezidentin çıxışları isə bizə Azərbaycan hökumətinin ən yüksək səviyyədə cənublu qardaşlarımızın qayğıları ilə maraqlandığından və onların rahat yaşamaları üçün bütün imkanlardan istifadə etməyi özünə borc bildiyindən xəbər verir”.

**Nihat Müzəffər**

**Əsrlər boyu digər xalqların nailiyyətlərini özününküləşdirən ermənilər bu vərdişlərindən əl çəkmək niyyətində deyillər. Bədnam qonşularımızın növbəti ”oğurluğu” Polşada qeydə alınıb.**

Sosial şəbəkələrdə yayılan məlumata görə, Krakov şəhərində ənənəvi etnik mədəniyyət yarmarkasında ”Azərçay”, Göyçay narşərabı” və Bakı qurabiyəsi ”qədim erməni məhsulları” adı ilə təqdim olunub.

*Azərbaycan Demokratiya və İnsan Haqları İnstitutunun rəhbəri, hüquq müdafiəçisi Əhməd Şahidov ”Şərq”ə deyib ki, heç nəyə sahib olmadıqları halda digər xalqlara, ələlxüsus türklərə xas adət-ənənəni, mədəni nümunələri, kulinariyanı mənimsəmək, özününküləşdirmək erməni xislətində var. Ekspert vurğulayıb ki, ermənilərin mənimsəmə xislətindən ən çox ziyan çəkən Azərbaycan xalqı olub:* ”Ermənilər təkcə tarixi torpaqlarımızı almaqla kifayətlənməyiblər. Eyni zamanda bu torpaqların qədim sahibləri olan Azərbaycan xalqının milli-mənəvi sərvətlərini, mədəniyyətini, musiqisini, yeməklərini də zəbt etməyə çalışıblar: ”Polşada baş vermiş erməni həyasızlığı da dəyərlərin mənimsənilməsinin çirkin bir nümunəsidir. Təbii ki, belə təxribatların qarşısını almaq üçün hamımızın üzərinə böyük məsuliyyət düşür. İlk növbədə həmin ölkədəki səfirliyimiz, diaspora təşkilatlarımız daha diqqətli olmalıdır. Milli Məclisdəki Polşa-Azərbaycan dostluq qrupları fəallıq nümayiş etdirməli, dərhal reaksiya verməlidir. Sərgi təşkilatçılarına da xəbərdarlıq etmək, ətraflı məlumat vermək lazımdır”.




# Polşada baş vermiş erməni həyasızlığı

## Ermənilər “Azərçay”ı, Göyçay narşərabını da “özününküləşdirir”

**İsmayıl**




# Mütləq dəyişiklik olunmalıdır

## AĞ partiya “Siyasi partiyalar haqqında” yeni qanunu indiki formada qəbul etmir

**”Milli Məclisdə keçirilən iclasda ”Siyasi partiyalar haqqında” yeni qanun layihəsini hazırlayan parlamentin üç komitəsinin rəhbərliyi və üzvləri iştirak edirdi”.**

**Bunu ”Şərq”ə açıqlamasında Ağ Partiya sədri Tural Abbaslı söyləyib.**

T.Abbaslı bildirib ki, hər partiya yeni qanun layihəsi barədə fikirlərini səsləndirdi: ”Qanun layihəsinin belə formada təsdiqlənməsini qəbuledilməz hesab etdik.

Dəstəyəkləyənlər də, dəstəkləməyənlər də var idi. AĞ Partiya ”Siyasi partiyalar haqqında” yeni qanunun indiki formada təsdiqlənməsini uyğun saymır.

Mütləq dəyişiklik gərəkdir. Qanun layihəsi Azərbaycanın siyasi reallığı nəzərə alınaraq təqdim olunmalıdır”.

*Qeyd edək ki, Milli Məclisdə ”Siyasi partiyalar haqqında” yeni qanun layihəsinin ictimai müzakirəsi baş tutub. Yeni qanun layihəsi Azərbaycan Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 10-cu bəndlərinə uyğun olaraq, siyasi partiyanın təsis edilməsi, dövlət qeydiyyatı, fəaliyyətinə nəzarət, fəaliyyətinin dayandırılması və bərpası, ləğvi qaydasını, həmçinin siyasi partiyanın fəaliyyətinin təşkili, üzvlük və maddi təminat məsələlərini müəyyənləşdirir.*

**Aygün Tahir**

# Dünyanı qlobal kataklizmlər bürüyür

## Belə bir vəziyyətə Azərbaycan-Gürcüstan əməkdaşlığı böyük önəm daşıyır

**Oktyabrın 24-də Mçxeta rayonundakı Muxrani sarayında (Chateau Mukhrani) Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstanın Baş naziri İrakli Qaribaşvili ilə təkbətək görüşü keçirilib.**

Görüşdən sonra Prezident İlham Əliyev və Gürcüstanın Baş naziri İrakli Qaribaşvili mətbuata bəyanatlarla çıxış ediblər.

Çıxış zamanı dövlət başçısı deyib ki, Gürcüstanda özünü evindəki kimi hiss edir: ”Mən yenidən Gürcüstanda olmağımdan çox məmnunam. Cənab Baş nazirlə bizim görüşlərimiz tez-tez keçirilir. Təkcə keçən il hörmətli cənab Qaribaşvili iki dəfə Azərbaycanda səfərdə olub. Eyni zamanda beynəlxalq təşkilatların keçirildiyi tədbirlər çərçivəsində də biz daim görüşürük”.

Bundan başqa, Azərbaycan lideri qeyd edib: ”Bu gün strateji tərəfdaşlıq əlaqələrimiz müttəfiqlik səviyyəsinə yüksəlib. Çünki bir çox sahələr üzrə biz fəal əməkdaşlıq edirik”.

Dövlətimizin başçısı beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan və Gürcüstanın bir-birini daim dəstəklədiyini qeyd edərək diqqətə çatdırıb ki, eyni zamanda, ikitərəfli formatda həyata keçirilən bir çox önəmli layihələr təkcə ölkələrimiz üçün deyil, bölgə üçün, bütün Avropa üçün xüsusi əhəmiyyət daşıyır.



**Görüşün kodlarını ”Şərq”ə açan siyasi şərhçi Turab Rzayev bildirib ki, ölkə başçısının Gürcustan səfəri indiki həssas məqamda çox əhəmiyyətlidir:** ”Artıq həm bölgədə, həm də dünyada qlobal kataklizmlər müşahidə olunur. Deməli olar ki, dünyanın çox az stabil ərazisi qalıb. Bundan sonra dünyanı getdikcə daha böyük toqquşmalar, xaos və qruplaşmalar gözləyir. Belə məqamda isə Azərbaycan-Gürcüstan münasibətləri xüsusi önəm qazanır.

Çünki Gürcüstan Azərbaycanın müəyyən mənada iqtisadi əlavəsidir. Ona görə də Azərbaycan iqtisadiyyatının möhkəm olması Gürcüstanı, digər regional oyunçuların təzyiqi altından xilas edir. Digər tərəfdən isə Gürcüstan Azərbaycanın Qərbə çıxış qapısıdır. Bizim bütün strateji layihələrimiz Gürcüstan üzərindən Qərbə bağlanır. Həmçinin biz hər iki ölkənin 44 günlük Vətən müharibəsində qarşılıqlı yardımlaşma içərisində olduğunu unutmamalıyıq.

Gürcustan ciddi şəkildə Rusiyadan keçən silahların və Ermənistana hərbi yardımın qarşısını aldı. Xüsusən də Azərbaycanı üç qonşusuna - İran, Ermənistan və Rusiyaya qarşı eyni anda meydan oxuyaraq müdafiə etdi. Belə bir vəziyyətdə bizim Gürcüstanın səmimi qonşuluğuna, dostluğuna və Azərbaycana yaxın olmasına ehtiyacımız var.

İndiki dönəmdə də düşmənlərimizin Azərbaycan-Gürcüstan koridoru əvəzinə İran üzərindən Ermənistan, Gürcüstan və Qara dəniz koridoru inşa etməyə çalışmalarını nəzərə almalıyıq. Belə siyasi məsələlərin müzakirə olunduğu bir vaxtda Azərbaycan-Gürcüstanla birlikdə öz marşrut xətlərini inkişaf etdirməyə və İranla Ermənistanın buna alternativ yaratmamasına çalışacaqdır”.

**Nihat Müzəffər**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

### Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi

# Diasporamızın gücü ikiqat artacaq

## Artıq Azərbaycan və Türkiyə diasporu erməni cinayətlərinə qarşı birgə fəaliyyətə önəm verir

**Azərbaycan diasporu Avropa İttifaqının Brüsseldəki mənzil-qərargahı önündə Ermənistanın müharibə cinayətlərinə birdəfəlik son qoyulması tələbi ilə dinc aksiya keçirib. Bu, dünyanın müxtəlif ölkələrində yaşayan və çalışan soydaşlarımız tərəfindən keçirilən dinc etiraz aksiyalarından, sadəcə, biridir. Təqdirəlayiq haldır ki, son zamanlar, xüsusən, 44 günlük Vətən müharibəsindən sonra xaricdə yaşayan soydaşlarımızın aktivliyi xeyli yüksəlib.**

Vətən müharibəsinə qədərki dövrdə də Azərbaycan diasporu Ermənistan tərəfindən ərazilərimizin işğal faktını, xalqımıza qarşı soyqırım siyasətinin dünyada tanıdılması, reallıqların dünya ictimaiyyətinə çatdırılması istiqamətində fəaliyyət göstərirdi. Lakin bu bir həqiqətdir ki, 44 günlük müharibədə məruz qaldıqları rüsvayçı məğlubiyyət Ermənistan siyasi hakimiyyətini və erməni lobbisini daha da azğınlaşdırıb. Erməni riyakarlığı, erməni yalanları, erməni saxtakarlığı sərhəd tanımır. Azərbaycan sərhədlərində təxribatlar törətməyə cəhd edən erməni silahlıları, erməni separatçıları xaricdəki havadarlarına arxalanaraq öz çirkin əməllərini ört-basdır etməyə çalışır, daim sülh çağırışı edən Azərbaycanı haqsız yerə günahlandırmağa səy göstərirlər. Əlbəttə, erməni təxribatlarının qarşısı həm şanlı ordumuz tərəfindən alınır, eyni zamanda siyasi müstəvidə də Ermənistana tutarlı cavab verilir. Təbii ki, bu prosesdə diasporumuzun üzərinə də böyük məsuliyyət düşür. Diasporun ümdə vəzifəsi Azərbaycan həqiqətlərini olduğu kimi dünyaya çatdırmaq, erməni yalanlarını ifşa etməkdir. Bu istiqamətdə görülən işlərdən biri də dinc etiraz aksiyalarının keçirilməsidir. Azərbaycan diasporu da bu sahədə fəaliyyətini genişləndirir. Avropa İttifaqının Brüsseldəki mənzil-qərargahı önündə Azərbaycan diasporunun dinc etiraz aksiyası da Ermənistanın müharibə cinayətlərinə birdəfəlik son qoyulması tələbi ilə keçirilib. Diasporla İş üzrə Dövlət Komitəsinin məlumatına görə, Belçika Azərbaycanlıları Federasiyasının təşkilatçılığı ilə baş tutan aksiyada Ermənistanın hərbi cinayətlərinə, o cümlədən Xocavənd rayonunun Edilli kəndində aşkarlanan kütləvi məzarlığa, iki il öncə Azərbaycanın Gəncə, Naftalan, Bərdə, Tərtər, Mingəçevir və digər şəhərlərinə - dinc əhaliyə qarşı törədilmiş raket hücumlarına diqqət cəlb edilib. Aksiyada nümayiş etdirilən fotomateriallar "Azərbaycan bütün universal dəyərlərə hörmət edir!", "Ermənistan silahlı qüvvələri təkcə Azərbaycan hərbi qulluqçularına qarşı deyil, həm də mülki vətəndaşlarımıza qarşı misli görünməmiş qırğınlar törədib", "Çoxsaylı müharibə cinayətlərinə görə məsuliyyət daşıyan erməni silahlı qüvvələrinin qanun qarşısında cavab verməsini tələb edirik!", "Beynəlxalq təşkilatları müharibə cinayətləri törədən erməniləri qınamağa çağırırıq!", "Ermənistanın təcavüzünü dayandırın!" kimi şüar və çağırışlarla müşayiət olunub. Aksiyada Belçika Azərbaycanlıları Federasiyası, "Ana Vətən" Avropa Azərbaycanlı Qadınlar Birliyi, Benilüks Azərbaycanlıları Konqresinin nümayəndələri, Belçika və Niderlandda yaşayan Azərbaycan icmasının fəalları iştirak ediblər. Aksiyada məqsəd Brüsseldə toplaşan Avropa İttifaqı ölkələrinin liderlərinin diqqətini Ermənistanın müharibə cinayətlərinə cəlb etmək olub. Bu aksiyadan bir neçə gün əvvəlsə Ana Vətən Avropa Azərbaycanlıları Qadınlar Birliyinin təşəbbüsü və təşkilatçılığı ilə Ermənistanın Niderlanddakı səfirliyi önündə dinc aksiya keçirilib. Aksiyada Benilüks Azərbaycanlıları Konqresinin üzvləri, Hollandiya-Azərbaycan Evi, Hollanda Azərbaycan Türk Kültür Assosiasiyasının üzvləri və diaspor fəalları iştirak ediblər. Nümayişçilər "Ermənistan minaları mülki şəxsləri öldürür", "Azərbaycan sülh istəyir, Ermənistan müharibə istəyir", "Ermənistan sülh seçimini rədd edir" kimi şüarlar yazılmış plakatlarla Ermənistanı sülhü dəstəkləməyə, mina xəritələrini verməyə çağırıblar.



**Xaricdə yaşayan soydaşlarımızın fəallığı, Azərbaycan diasporunun məqsədyönlü fəaliyyətinin dünya azərbaycanlılarının həmrəyliyindən qaynaqlandığını deyən tarix üzrə fəlsəfə doktoru, professor Həvva Məmmədova "Şərq"ə açıqlamasında qeyd etdi ki, dünya azərbaycanlılarının həmrəyliyinin ən bariz nümunəsini xalqımız 44 günlük Vətən müharibəsində gördü:**

- Vətən müharibəsi günlərində istər Azərbaycan daxilində, istərsə də xaricdə yaşayan həmvətənlərimizin həmrəyliyi, mən deyərdim ki, ən yüksək zirvəyə ucaldı. Xalqın övladlarının harada yaşamalarından asılı olmayaraq ürəklərinin Azərbaycanla, Azərbaycan Ordusu, qəhrəman əsgərlərimizlə bir vurduğunu, bütün dünya azərbaycanlılarının cənab Prezidentin ətrafında bir yumruq kimi birləşdiyini hamımız gördük. Vətən müharibəsindəki qələbəmizi həm də bu amil şərtləndirdi. Qələbədən sonra isə hamımızın əsas vəzifəsi ermənilərin hələ də davam etdirdikləri yalanlarını, saxtakarlıqlarını, insanlıq əleyhinə cinayətlərini dünyaya çatdırmaqdır. Bu işdə də əsas məsuliyyət xaricdə yaşayan soydaşlarımızın üzərinə düşür. Çünki erməni diasporunu susdurmaq lazımdır. Bu işdə bizə dəstək verən, birgə əməkdaşlıqla erməni yalanlarının ifşasına kömək edən əlbəttə ki, qardaş Türkiyədir. Bu günlərdə Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Avstraliyaya səfər edib və səfər çərçivəsində Türkiyənin bu ölkədəki səfiri, Melburn şəhərindəki Baş konsul və Sidney şəhərindəki Baş konsulla görüşüb. Görüşdə məqsəd birgə əməkdaşlıqdır. Birgə əməkdaşlıq fəaliyyətinin Avstraliyada yaşayan çoxsaylı erməni icmasının törədə biləcəyi təxribatların qarşısının alınmasında, Azərbaycan həqiqətlərinin bu ölkədə daha geniş yayılmasında mühüm əhəmiyyətə malik olduğu vurğulanıb, bildirilib ki, "bir millət, iki dövlət" olan Azərbaycan və Türkiyə nümayəndələrinin dünyanın müxtəlif ölkələrində, xüsusən uzaq Avstraliyada sıx birlik nümayiş etdirməsi qürurvericidir. Türk diplomatları Sidneydə və digər şəhərlərdə yaşayan azərbaycanlıların ölkənin və paytaxt Kanberranın ictimai-siyasi həyatında fəallıqları ilə seçildiklərini nəzərə çatdırıblar. Bütün dünyaya nümunə olan Türkiyə-Azərbaycan qardaşlıq münasibətlərinin Avstraliyada da nümayiş etdirildiyi, icmalarımızın sıx əməkdaşlıq etdiyi vurğulanıb. Hər iki icmanın gələcək birgə fəaliyyəti barədə ətraflı müzakirələr aparılıb. Bu onu göstərir ki, Azərbaycan və Türkiyə diasporu erməni cinayətlərinə və erməni yalanlarına qarşı birgə fəaliyyətə önəm verir. Bu əməkdaşlıq sayəsində diasporumuzun gücü ikiqat artacaq.

**H.Məmmədova qeyd etdi ki, dinc aksiyalarla yanaşı dünya ictimaiyyətinin məlumatlandırılmasında müxtəlif vasitələrdən istifadə edilir:**

- Xatırladım ki, bir müddət öncə İtaliyanın Venesiya şəhərində azərbaycanlı icması məlumatlandırıcı aksiya keçirmişdi. Aksiya Ermənistanın ölkəmizə qarşı törətdiyi müharibə və ekoloji cinayətlərə diqqəti cəlb etmək məqsədi daşıyırdı. Aksiya Venesiya şəhərinin ən izdihamlı yerlərindən biri olan Rialto körpüsü və Müqəddəs Bartolomeo meydanında baş tutmuşdu. Aksiya çərçivəsində "Hər birimiz müharibə cinayətlərinin əleyhinəyik!", "Gəncə üçün dua et!", "Bərdə üçün dua et!" şüarlarının, Gəncə terrorunun fotosunun əks olunduğu geyimdə olan gənc soydaşlarımız yerli sakinlərə Ermənistanın bütün bəşəri dəyərlərə zidd cinayətkar əməlləri barədə məlumat verirdilər. Venesiyalılara bu məlumatların daşıyıcısı olan QR kodlu oyuncaqlar paylanmışdı. Belə aksiyalar daha çox diqqət çəkən olur. Xüsusən gənclər arasında keçiriləndə. Çünki gənclərin maraq dairəsi genişdir. Həmyaşıdının əynində müəyyən çağırışlı, şüar yazılmış geyim gördükdə diqqəti ona yönəldirlər. Bu zaman da çağırışın, şüarın məqsədiylə də maraqlanırlar.

*H.Məmmədova bildirdi ki, Dünya Azərbaycanlılarının Şuşada keçirilən V qurultayında cənab Prezident diaspor təşkilatlarının qarşısında duran vəzifələri aydın izah edib.* Bildirib ki, diasporumuzun qarşısında duran ən ümdə məsələ xarici ölkə ictimaiyyətini məlumatlandırmaqdan ibarətdir. Bu iş yaxın çevrədən başlamaqla, dostlar, tanışlar arasında, iş yerində, ictimai birlikdə təmsil olunurlarsa həmin müstəvidə icra edilməlidir. Azərbaycan reallıqları, postmünaqişə dövrü haqqında və Azərbaycan tarixi haqqında soydaşlarımız özləri də məlumatlı olmalı və bu məlumatları əcnəbi dostlarına, həmkarlarına, yaxın-uzaq çevrələrində kimlər varsa, onlara çatdırmalıdırlar. Cənab Prezidentin dediyi kimi "tarixi məqamlar daim diaspor təşkilatlarının gündəliyində olmalıdır". Xaricdə fəaliyyət göstərən diaspor təşkilatları Azərbaycanla daim təmasdadırlar, müxtəlif ölkələrdə fəaliyyət göstərən diaspor təşkilatları arasında koordinasiya təkmilləşir. Bu, sevindiricidir. Cənab Prezident çıxışında vurğulamışdı ki, xaricdə yaşayan azərbaycanlılar böyük qüvvədir. Bu qüvvədən bacarıqla istifadə edilməlidir.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Rəqabət mühiti xaos yaradıb

## Azərbaycanda həqiqətən taksi fəaliyyətinin təkmilləşdirilməsinə ehtiyac var




**Bakının müxtəlif ərazilərində qanunsuz parklanma və taksi fəaliyyəti ilə bağlı reydlər keçirilib. Polis əməkdaşları nöqsan aşkar etdikləri avtomobillərlə bağlı tədbirlər görüblər. Paytaxtda keçirilən reydlərə Bakı Dövlət Yol Polis İdarəsi ilə yanaşı Bakı şəhər İcra Hakimiyyəti, Bakı Nəqliyyat Agentliyi və Dövlət Vergi Xidmətinin əməkdaşları cəlb olunub. Monitorinqlərin keçirilməsində məqsəd taksi fəaliyyətinin qanunauyğun formada tənzimlənməsidir.**

Reyd zamanı AZTV-nin müxbirinin sualına cavab verən sürücü Ramazan Məmmədov əvvəlcə sənədlərinin tam qaydasında olduğunu deyib. Ardınca isə fərqlənmə nişanının olub-olmadığını bilmədiyini söyləyib.

**Nəqliyyat və yol məsələləri üzrə ekspert Ərşad Hüseynov isə hesab edir ki, Azərbaycanda taksi fəaliyyətinin təkmilləşdirilməsinə ehtiyac var. Həm qiymət fərqliliyi, həm də keyfiyyət baxımından bu sahədə müsbət yeniliklərin edilməsi zəruri hesab olunur.** Xüsusilə təcrübəsiz sürücülərin şirkətlərdə taksi fəaliyyətinə cəlb olunması zaman-zaman qəzalara gətirib çıxarır ki, bu da vətəndaşları ciddi narahat edir: "Azərbaycanda taksi fəaliyyəti ilə məşğul olanların sayı durmadan artır. Bir çoxları isə qanunvericiliyin tələblərinə cavab vermədən bu fəaliyyətlə məşğul olmaqda davam edir. Son reydlər də Azərbaycanda fəaliyyət göstərən taksilərin çox az hissəsinin qanunauyğun fəaliyyət göstərdiyini sübut etdi".

**"Xüsusilə təcrübəsiz sürücülərin şirkətlərdə taksi fəaliyyətinə cəlb olunması zaman-zaman qəzalara gətirib çıxarır ki, bu da vətəndaşları ciddi narahat edir"**

Taksi xidmətinin keyfiyyətinə gəlincə isə ekspert bu istiqamətdə işlərin görülməsinin vacibliyini diqqətə çatdırıb: "Əvvəla, yol hərəkəti təhlükəsizliyi, taski sürücülərinin iş və istirahət rejimi, taksi fəaliyyətinin qanun çərçivəsində həyata keçirilməsidir. Hazırda rəqabət mühitini təhlil etsək görərik ki, taksi sürücüləri ilə sərnişinlər arasında əlaqə yaradan şirkətlər rəqabətlərini sürücülərin hesabına qururlar. Onlar işlərini elə qurublar ki, sürücülər sutka ərzində 14 saat işləməlidir, bu da qanuna ziddir. Çünki əmək qanunvericiliyi, nəqliyyat sahəsində sürücülərin fəaliyyətinə dair qanunvericilik sürücünün bir sutka ərzində cəmi 8 saat işləməsinə icazə verir. Nəticədə yanlış manevrlər, qəzalar olur. Həmin şirkətlər öz aralarındakı rəqabəti gediş haqqına görə qururlar. Gediş haqlarında da sürücüyə düşəcək məbləğdə ciddi problemlər olur. Bəzən kartla ödəniş zamanı ƏDV-lərin çox çıxılması da aqreqatların gizli oyunlarından biridir. Sürücülər 14-16 saat işləyirlər ki, normal pul qazansınlar". Ə.Hüseynov bildirib ki, şirkətlər taksi fəaliyyəti üçün fərqlənmə nişanı olmayan sürücüləri qanunsuz olaraq xidmətə cəlb edirlər: "Bu cür rəqabət mühiti xeyli problemin olduğunu göstərir. Görüləcək işlərə gəlincə, həmin şirkətlərin fəaliyyəti, statusu hüquq normaları ilə tənzimlənməlidir. Kimləri xidmətə cəlb edə bilərlər, cəlb etdikləri insanın neçə saat işləməsinə şərait yarada bilərlər, bunlar nəzərə alınmalıdır. Sadalanan məqamlar yerinə yetirilsə, rəqabət mühiti də sağlam olar".

**Şəymən**

# "Ukrayna müharibəsi bəşəriyyətin taleyini həll edəcək"

## "Əgər nüvə silahından istifadə olunsa dünyanın sonu gələ bilər"



**Rusiya-Ukrayna müharibəsi getdikcə daha da şiddətlənir. Moskva savaşı dayandırmaq istəmir, rəsmi Kiyev isə Putin hakimiyyəti ilə danışıqlardan qəti şəkildə imtina edir.**

Bu da onu deməyə əsas verir ki, Ukraynanı "qan gölü"nə çevirən müharibə hələ uzun müddət davam edəcək. Bəs savaş nə zaman başa çatacaq və qazanan kim olacaq?

**Bu müharibənin iki qütbün savaşı olduğunu deyən politoloq Elçin Xalidbəyli "Şərq"ə bildirib ki, buradakı əsas hissə səhnə arxasındadır:** "Bir çoxları bu müharibəyə Rusiya ilə Ukrayna arasındakı hərbi insident kimi yanaşır. Lakin bu yalnız üzdə görünən hissədir. Burada Şərqlə-Qərbin savaşı gedir. Rusiya Şərqi təmsil edir, Ukrayna isə Qərbi. Bu iki qütbdən birinin zəifləməsi və ya məğlub olması təqdirdə müharibə sona çatacaq. Yəni iki tərəfdən biri demək olar ki, sıradan çıxmış olacaq. Bu bizə deməyə imkan verir ki, Ukrayna müharibəsi dünya hegemonluğu üzərindəki mübarizənin tərkib hissəsidir".

**Ekspert qeyd edib ki, hər iki tərəfin üstün və zəif tərəfləri kifayət qədərdir:** "Rusiyanın hərbi potensialı tükənib. Lakin əlində nüvə silahı və insan resursları var. Bu resursları toplayaraq yenidən savaşa bilər. Amma qarşı tərəfin, yəni Qərbin də zəif nöqtəsi var. Bu zəiflik Rusiyaya qarşı yer alan koalisiya ölkələrinin, Kremlin enerji resurslarından asılı olmasıdır.

Getdikcə bu asılılığın təsiri artır və şaxtalı qış aylarının gəlməsi ilə Avropadakı vəziyyət gərginləşməyə başlayır. Orada təkcə enerji yox, həm də maliyyə və humanitar böhranı da şiddətlənir. Zaman keçdikcə böhran daha da böyüyəcək. Hətta bu, Avropadakı bəzi ölkələrdə hakimiyyət dəyişikliyinə də gətirib çıxara bilər. Ümumiyyətlə isə bu müharibə bəşəriyyətin taleyini həll edəcək bir savaş kimi görünür. Əgər burada nüvə silahından istifadə olunsa dünyanın sonu gələ bilər".

**Nihat Müzəffər**

# Rusiya Türkiyənin vasitəçiliyinə ehtiyac duyur

## Putinin İndoneziyada G-20 sammitində Zelenski ilə görüşdə maraqlı olduğu görünür



**"Rusiya Prezidenti Vladimir Putin Kiyevlə danışıqlara getmək üçün yenidən Türkiyənin vasitəçiliyinə ehtiyac duyur, Zelenski ilə görüşməyə ümid edir".**

Bunu "Şərq"ə açıqlamasında Milli Cəbhə Partiyasının sədr müavini Məhəmməd Əsədullazadə deyib. Partiya rəsmisi bildirib ki, Rusiya prezidenti Ukrayna ilə danışıqların aparılmasında əvvəlki mövqeyindən fərqli olaraq daha çox həvəslidir. Bunu Ərdoğan da qeyd edib: "Görünür, Kreml Ankara ilə bu məsələdə dialoqdadır və Kiyevin müəyyən şərtləri ilə razılaşacağını qeyd edib. Ukraynanın Xersona əks-hücumlarının uğurlu olması, səfərbərliyin müsbət nəticələnməməsi, hakimiyyət daxilində fikir ayrılıqları, orduda Kreml rəhbərinə qarşı narazılıq Putinin çıxış yolu axtarmasına səbəb olub. Putinin İndoneziyada G-20 sammitində Zelenski ilə görüşdə maraqlı olduğu görünür. Hətta Putin Ukraynaya güzəştlərə də hazırdır. Əks halda Ərdoğan belə fikir bildirməzdi. Ancaq Kiyevin Moskvanın bu mesajına müsbət cavab verməsi gözlənilmir. Çünki Qərb Kiyevin müharibəni davam etdirməsini və Rusiyanın Ukrayna ərazisindən tam çıxarılmasını istəyir. Əgər Putin müharibənin ilk aylarında danışıqlarda konstruktiv mövqe sərgiləsəydi Krım və Donbassda mövqelərini qoruya bilərdi. Hazırda müharibə Krım və Donbassda davam edir. Rusiya bu əraziləri də itirmək təhlükəsi ilə üzləşib". Analitik Rusiyanın Ukraynanı "çirkli bomba" atmaqda ittiham etməsini bu cür dəyərləndirib: "Ukrayna "çirkli bomba"dan istifadədə maraqlı idisə, bunu Buçada və Xarkovda, yəni Rusiya qoşunlarına qarşı zəif olduğu məqamda edərdi. Hazırda təşəbbüs Ukrayna ordusundadır. Rusiya qoşunları cəbhələrdə məğlub olur. Belə vəziyyətdə Kiyevin təhlükəli silahdan istifədəsinə ehtiyac yaranmır. Rusiya Ukraynanın hücumlarını durdurmaq və daxili siyasətdə özünə qarşı etirazları neytrallaşdırmaq üçün "çirkli bomba" yalanını gündəmə gətirib. Gələn ay Xersonun işğaldan tamamilə azad olunması mümkündür. Rusiyanın məğlub olması qaçılmazdır. Reallıq isə odur ki, Rusiya beynəlxalq konyukturanın əsas subyekti olmayacaq".

**İsmayıl**

# Düşmən qəbirlərə belə mina quraşdırıb

## İşğaldan azad edilmiş ərazilərə qeyri-qanuni yolla getmək təhlükəlidir

**Tərtər rayonunun Çaylı adlanan ərazisində 1 nəfər şəxsin minaya düşməsi ilə bağlı rayon prokurorluğuna məlumat daxil olub. İlkin araşdırmalarla həmin ərazidə olarkən 1996-cı il təvəllüdlü Samir Əlizadənin minaya düşməsi nəticəsində ağır dərəcəli bədən xəsarətləri alaraq hər iki ayağının amputasiya olunması müəyyən edilib. Hazırda faktla bağlı Tərtər Rayon Prokurorluğunda araşdırma aparılır.**



**Elman Məmmədov: 'Mən də getmək istəyirəm, 28 ildir ki, həsrətindəyəm. Lakin icazə yoxdursa, qaydaya əməl etmək lazımdır"**

Qeyd edək ki, Azərbaycan dünyada mina və partlamamış hərbi sursatlardan əziyyət çəkən ölkələr sırasında liderlərdən biridir. Qarabağ münaqişəsi həll olunsa da, Ermənistanın Azərbaycana qarşı terror siyasəti davam edir. Təsadüfi deyil ki, 2020-ci ilin 10 noyabr Bəyanatından sonra indiyədək əksəriyyəti mülki şəxslər olmaqla 230-dan çox vətəndaşımız mina hadisəsinin qurbanı olub. Onlar arasında həmin ərazilərdə xidmət aparan sosial-infrastruktur layihələrinin işçiləri və hərbi qulluqçular var. Eyni zamanda 34 mülki Azərbaycan vətəndaşı minaların qurbanı olub. Bu hadisələrin əksəriyyəti isə qayda-qanunlara və müvafiq tələblərə riayət etməməkdən, yaxud səhlənkarlıqdan meydana gəlib.

Mina partlayışlarının sayının artması və mütəmadi belə olayların yaşanması ictimaiyyətin narahatlığına səbəb olur. İddia edilir ki, əgər torpaqlarımızın minalardan tam təmizlənməsi mütəxəssislərin dediyi kimi uzun müddət davam edərsə, qeyri-döyüş şəraitində ölüm halları çoxala bilər. Ona görə də bütün vətəndaşlarımız dövlət qurumlarının çağırışlarına qeyd-şərtsiz əməl etməli, tövsiyə və məsləhətləri qulaqardına vurmamalıdır. Mövcud riskləri nəzərə alaraq bir qədər səbrli olmaq, təmkinli davranmaq daha məqsədəuyğundur.

**Millət vəkili Elman Məmmədovun "Şərq"ə açıqlamasına görə, bu istiqamətdə maarifləndirici tədbirlər həyata keçirilməsinə rəğmən işğaldan azad olunmuş torpaqlarımıza giriş-çıxışla bağlı ciddi problemlər var. O yerlərə icazəsiz, qeyri-qanuni yollarla getmək təhlükəlidir:** "Hələ ilk gündən Prezident İlham Əliyev işğaldan azad olunan ərazilərin düşmən tərəfindən minalandığını söyləyib. Eyni zamanda Daxili İşlər Nazirliyi mütəmadi xəbərdarlıq edir, qadağalar qoyur. Həmçinin hərbi postlar var. Minalardan təmizlənməmiş ərazilərə getmək olmaz. İşarələr yerləşdirilib, ordan kənara çıxılmamalıdır.

Bu 30 ildə düşmən hətta qəbirlərə belə mina quraşdırıb. KİV-lərdə maarifləndirmə işləri aparılır, təhlükəli olduğu söylənilir.

Axı riskli olduğunu bilə-bilə niyə gedirsən? 44 günlük müharibədən bu yana həm hərbçilərimiz, həm də mülki vətəndaşlarda qayda-qanuna əməl etməyənlərin içərisində nə qədər ölüm hadisəsi olub. Bir vətəndaş, bir millət vəkili kimi əhaliyə çağırış edirəm ki, icazəsiz azad olunmuş ərazilərə keçməyin! Mən də getmək istəyirəm, 28 ildir ki, həsrətindəyəm. Lakin icazə yoxdursa, qaydaya əməl etmək lazımdır. Axı qeyri-qanuni gedib, ölənlər, yaralananlar göz qabağındadır. Vətəndaşlarımız nəticə çıxarıb, qaydalara ciddi riayət etməlidirlər".

**Şəymən**

# Vətəndaşlara zaman tanınmalıdır

## Adəm Məmmədov: "Elektron məhkəmə sisteminin üstünlükləri ilə yanaşı, problemli tərəfləri də var"



**Vəkillik sahəsində son zamanlar ciddi yeniliklər baş verir. Bunu Vəkillər Kollegiyasının sədri Anar Bağırov "Vəkillik və İKT, müasir çağırışlar" mövzusunda keçirilən tədbirdə deyib. O bildirib ki, əsas məqsəd vəkillərin fəaliyyətinin asanlaşdırılmasıdır. Kollegiya sədri bu sahədə bəzi çətinliklərin də olduğunu bildirib. Qeyd edib ki, vəkillərin sorğusuna elektron cavab verilməməsi çətinliklər törədir.**

"Bu, vaxt itkisinə səbəb olur, Ədliyyə Nazirliyindən xahiş edirəm, vəkillərin sorğularına elektron qaydada cavab verilməsinə yardım olunsun. Sorğulara elektron qaydada cavabların verilməsi vaxt itkisinin və digər xərclərin qarşısını alacaq",- A.Bağırov qeyd edib. A.Bağırov həmçinin vəkillərin eyni saatda müxtəlif proseslərə çağırılmasının qarşısını almaq üçün Ədliyyə Nazirliyinə müraciət edildiyini deyib. Kollegiya sədri bildirib ki, eyni saatda müxtəlif məhkəmə prosesləri təyin edilir ki, bu zaman vəkil o proseslərdə iştirak etməkdə çətinlik çəkir. Bu səbəbdən məhkəmə proseslərinin vaxtını göstərən ümumi sistem olmalıdır ki, hakim də məhkəmə prosesində iştirak edəcək vəkilin həmin saatda hansısa başqa bir məhkəmə prosesində iştirak edib-etmədiyindən xəbərdar olsun, məhkəmələr eyni gündə, eyni saatda təyin edilməsin. Bu məqsədlə elektron məhkəmə sisteminin təkmilləşməsi lazımdır: "Bununla da bir vəkilin eyni vaxtda müxtəlif proseslərə çağırılmasının qarşısı alınar. Bu məsələ ilə bağlı Ədliyyə Nazirliyinin rəsmi şəxslərinə müraciət etmişəm", - A.Bağırov deyib. Ədliyyə Nazirliyinin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin rəisi Aynur Sabitova isə bildirib ki, bu məsələ nazir Fikrət Məmmədova məruzə edilib: "Cənab nazir dərhal bu məsələnin həll olunması ilə bağlı tapşırıq verib".

Qeyd edək ki, Məhkəmə-Hüquq Şurasının sədri, I dərəcəli dövlət ədliyyə müşaviri Fikrət Məmmədov bir müddət öncə qeyd etmişdi ki, ölkə ərazisində fəaliyyət göstərən məhkəmələrin üçdə ikisində elektron məhkəmə sistemi tətbiq olunur və bu sistemin bütün məhkəmələrdə tətbiqi nəzərdə tutulur, bu istiqamətdə iş aparılır. Qanunvericiliyə edilmiş mühüm dəyişikliklər məhkəmə fəaliyyətinin təkmilləşdirilməsinə, o cümlədən süründürməçiliyin aradan qaldırılmasına, işlərə çevik və vaxtında baxılmasına şərait yaradıb. Həmçinin bu dəyişikliklər məhkəmələr tərəfindən "Elektron məhkəmə" informasiya sisteminin tətbiqini daha da genişləndirib. Məhkəmə icraatının video-konfrans əlaqə sistemi vasitəsilə həyata keçirilməsi imkanının yaradılması şəffaflığın əlavə təminatına şərait yaradır. **Elektron məhkəmə sisteminin təkmilləşməsinin vəkillik fəaliyyətinə nə dərəcədə təsir edəcəyi barədə "Şərq"ə danışan vəkil Adəm Məmmədov qeyd etdi ki, elektronlaşma zamanın tələbidir:**

> **"Yenilik, müasirlik yaxşıdır, amma keçid dövrü mütləq olmalıdır. Elektron məhkəmə sistemi ilə yanaşı yazılı müraciət qaydası bir müddət paralel aparılmalıdır"**

- Texnologiyanın inkişafı hər sahədə özünü göstərir. Elektron məhkəmə sistemi də bunlardan biridir. Bunu zaman tələb edir. Xüsusilə pandemiya şəraitində elektronlaşmanın zəruriliyi bir daha özünü göstərdi. Üstünlük bundadır ki, vətəndaş məhkəmə binasına gəlmədən, elektron sistemə daxil olub məlumat əldə edə bilir. Məhkəmə proseslərinin onlayn izlənməsi imkanı əldə edilir. Məsələn, biz vəkillər məhkəmə prosesinə qatılmadan prosesi izləyə bilirik. Üstünlükləri var, amma problem yaradan tərəfləri də var. Hesab edirəm ki, elektron məhkəmə sistemi tətbiqi yazılı müraciət qaydası və ya əyani şəkildə məhkəməyə müraciət, məlumatların əldə edilməsini tamamilə sıradan çıxarmamalıdır. Yeni qaydalara, elektron sistemə uyğunlaşmaq üçün vətəndaşlara zaman tanınmalıdır. Yenilik tətbiq edilməzdən öncə maarifləndirmə işi aparılmalıdır. Hamının düşüncəsi eyni deyil. Vətəndaş elektron məhkəmə sistemi ilə ondan istifadə qaydası ilə tanış olmaya bilər. Yenilik, müasirlik yaxşıdır, amma keçid dövrü mütləq olmalıdır. Elektron məhkəmə sistemi ilə yanaşı yazılı müraciət qaydası bir müddət paralel aparılmalıdır. Vətəndaşlar bu sistemlə tanış olanadək, ondan istifadəni öyrənənədək.

**A.Məmmədov qeyd etdi ki, elektron məhkəmə sistemi vəkillərin də işini asanlaşdırır.** Bu mənada ki, hakim proses gününü təyin edərkən elektron sistemə daxil olub prosesdə iştirak edəcək vəkilin həmin gün, həmin saatda başqa bir məhkəmə baxışında iştirak edib-etməyəcəyini dəqiqləşdirə biləcək. Bununla da bir vəkilin eyni vaxtda 2 məhkəmə prosesinə çağırılması aradan qalxacaq. Əks halda qarışıqlıq yaranır, vəkillər yüklənir, bir prosesdən çıxıb digərinə, hətta bəzən, bir məhkəmə prosesi bitməmiş digərinə getməli olur. Bu, müdafiə işini çətinləşdirir, müdafiə tərəfinin hüquqi baxımdan tam təminatına əngəl yaradır.

**Məlahət Rzayeva**

# "İsrafil İbrahimov Laçında Səfiyan kəndində şəhid olub"

## Mənsum İbrahimov: "Gözləyirəm ki, minalardan təmizlənsin mən də gedib o yeri ziyarət edəcəyəm"





**"Bəzən deyirlər, Şuşaya maşın gec çatdı. Onda cavab verirəm: Axı o yolları igidlərimiz addım-addım, vuruşa-vuruşa, saatlarla, günlərlə, yağışda, küləkdə yara-lana-yaralana, şəhid ola-ola gediblər. O torpaqların hamısı müqəddəs ziyarətgahdır. Kimin övladı orada şəhid olubsa, istəyir getsin ziyarət etsin".**

*Bu sözləri Xalq artisti Mənsum İbrahimov "Söhbət musiqidən gedir" proqramında deyib. Xanəndə tək istəyinin qardaşı oğlu İsrafil İbrahimovun şəhid olduğu kəndi ziyarət etmək olduğunu söyləyib:*

"Laçında Səfiyan kəndi var. Gözləyirəm ki, minalardan təmizlənsin mən də gedib onun şəhid olduğu yeri ziyarət edəcəyəm".

*Qeyd edək ki, İsrafil İbrahimov Xüsusi Təyinatlı Qüvvələrdə xidmət edirdi. Laçın uğrunda gedən döyüşlərdə şəhid olub. O, Ağdamda dəfn edilib.*

# Qadağalar sərtləşir

## Yük avtomobillərinin Bakıya girişi və hərəkəti məhdudlaşdırılacaq



**Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi yükdaşıma fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərə müraciət edib. İdarədən "Şərq"ə verilən məlumata görə, müraciətdə deyilir:**

"Son vaxtlar Bakı şəhərində yaranmış nəqliyyat sıxlığının aradan qaldırılması və mövcud vəziyyətin optimallaşdırılması ilə əlaqədar çoxsaylı vətəndaş müraciətləri nəzərə alınaraq, yolların buraxılış imkanlarının artırılması, əhalinin nəqliyyat təminatının yaxşılaşdırılması və yol hərəkətinin təhlükəsizliyinin daha etibarlı təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Yol hərəkətinin təşkili, tənzimlənməsi və təhlükəsizliyi üzrə Komissiyası tərəfindən müvafiq tədbirlərdən biri kimi 2022-ci il oktyabrın 27-dən xüsusi təyinatlı, o cümlədən qəza-bərpa və xilasedici nəqliyyat vasitələri istisna olmaqla, kütləsi yüklə birlikdə 8 tondan çox olan yük avtomobillərinin səhər saat 07:00-dan axşam 22:00-dək, yanacaq daşıyan yük avtomobillərinin isə səhər saat 06:00-dan axşam saat 00:00-dək Bakı şəhərinə girişi və şəhərdaxili hərəkətinin qadağan edilməsi nəzərdə tutulub. Həmçinin qeyd edirik ki, icazə verilən müddət ərzində paytaxta daxil olmuş yük avtomobilləri səhər saat 07:00-dək, yanacaq daşıyan yük avtomobilləri isə səhər saat 06:00-dək şəhəri tərk etməlidirlər. Bununla əlaqədar, bütün yükdaşıma fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərdən, habelə yük sahiblərindən öz fəaliyyətlərini qeyd olunan müddətlərə uyğunlaşdırmaları xahiş olunur".

**Sucayət**

# Azərbaycandan İrana keçmək istəyən iki qadın saxlanılıb

## Fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir

**Oktyabr ayının 22-də saat 19:00 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin Biləsuvar rayonunun Səmədabad kəndi yaxınlığında yerləşən sərhəd zastavasının xidməti ərazisində, dövlət sərhədini pozaraq qanunsuz yolla Azərbaycan Respublikasından İran İslam Respublikasına keçməyə cəhd göstərən 2 (iki) nəfər Azərbaycan vətəndaşları, 1994-cü il təvəllüdlü Vəliyeva Məryəm Təbriz qızı və 1981-ci il təvəllüdlü Qasımova Aytən Rafiq qızı saxlanılmışlar.**



Dövlət Sərhəd Xidmətindən "Şərq"ə verilən məlumata görə, araşdırma zamanı qeyd olunan şəxslərin cari ildə Türkiyə Respublikasından deportasiya edilərək bu ölkəyə girişlərinə qadağa qoyulduğuna görə dövlət sərhədini pozaraq qanunsuz yolla İran İslam Respublikasına, oradan isə Türkiyə Respublikasına keçmək niyyətində olmaları müəyyən edilmişdir.

Fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# Ortaq türk tarixi yaradılmalıdır

## Bunun ardınca ümumi televiziya proqramının və türkdilli dərsliklərin ərsəyə gətirilməsi vacibdir



**Ortaq türk əlifbasının yaradılması ideyası 15 ilə yaxındır ki, müzakirə olunur. Onun hələ 2012-ci ildə hazırlanacağına dair çoxlu məlumatlar var idi. Hazırda bu mövzu yenidən aktuallaşıb. Türkiyənin Bursa şəhərində türk dünyasının ortaq əlifbası mövzusunda seminar keçirilib. Seminarda vahid əlifbanın yaradılması üzrə komissiyanın formalaşdırılması ilə bağlı qərar Türk Dövlətləri Təşkilatına (TDT) təqdim edilib.**

Qeyd olunur ki, "türk dövlətlərinin dil birliyi və ortaq əlifbaya keçidi prosesini sürətləndirmək üçün" hər ölkədən iki nümayəndənin daxil olduğu komissiya yaradılıb. İlk görüş Qırğızıstanda baş tutacaq. "Anadolu"nun məlumatına görə, daha sonra komissiya vahid əlifba ilə bağlı hesabatı qurumun Ağsaqqallar Şurasına təqdim edəcək. Xatırladaq ki, TDT-yə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə və Özbəkistan daxildir.

Təklifin alqışlayıq olduğunu deyən BDU-nun Jurnalistika fakültəsinin professoru, tarixçi-alim Nəsiman Yaqublu "Şərq"ə bildirib ki, bundan çıxış edərək ümumi türk tarixinin yaradılması məsələsinə getmək lazımdır: "Xeyli amillər var ki, türk tarixinin, türk mədəniyyətinin yazılmasına və təqdim edilməsinə mane olur. Onlar bizlərin ümumi türk tariximizi özbək, qırğız, türkmən və s. kimi adlara bölərək mədəniyyətimizi dağıtmaq istəyirlər.

Lakin bizim mədəniyyətimizin və tariximizin adı birdir. Ümumi olaraq onu türk tarixi və türk mədəniyyəti adlandırırlar. Ona görə də ümumi əlifbanın yaradılması bu problemlərin həllində böyük rol oynayacaq.

Yəni əlifbadan başlanılan bir mədəniyyətin, musiqinin, ədəbiyyatın və dilin inkişafı istiqamətində konsepsiyalar işləyib hazırlamaq lazımdır.

Bu təkcə əlifba ilə yekunlaşmamalıdır. Dediyim məsələlər kompleks şəkildə həll edilməlidir ki, ümumtürk xalqlarının inteqrasiyasına dəstək olsun.

Bunun ardınca ümumi televiziya proqramının və türk dilli dərsliklərin ərsəyə gətirilməsi vacibdir. Digər tərəfdən isə SSRİ dövründə qadağan edilmiş türk xalqları tarixinin və mədəniyyətinin yenidən araşdırılması yaxşı olardı".

**Nihat Müzəffər**





# "Heç kim mənimlə maraqlanmadı"

## Könül Xasıyeva 254 min manat lazımdır

**Xəbər verdiyimiz kimi, Xalq artisti Könül Xasıyeva boğazında şiş aşkarlandığını açıqlayıb.**

Xanəndə müalicəsi üçün 254 min manat lazım olduğunu bildirib. Hətta artıq bir neçə gündür məsələ ilə bağlı ifaçı sənət adamlarına müraciət ünvanlayaraq, ona yardım etmələrini istəyib.

**Bəs görəsən, Xasıyevanın işarələdiyi tanınmış simalar onunla maraqlanıb?**

Məsələ ilə bağlı xanəndə Axşam.az-ın sualını cavablandırıb.

"Heç kim maraqlanmayıb və yardım da etməyib. Bu məsələ ilə bağlı danışmayacağam, məni bağışlayın" deyə, K.Xasıyeva bildirib.

*Qeyd edək ki, K.Xasıyeva müalicəsinin Almaniyada mümkün olduğunu bildirib.*

**Hesab nömrəsi:**
4127 2093 0402 8852
4127 2093 0539 6555

# ATV-nin əməkdaşı iş yerində vəfat edib

## Yemək yediyi zaman nəfəs borusuna qida düşüb



***"Belə hallarda boğulan şəxsi xilas etmək üçün ilk saniyələr qiymətlidir"***

**Azad Azərbaycan Televiziyasının (ATV) əməkdaşı iş yerində bədbəxt hadisə nəticəsində vəfat edib.**

Şirkətin əməkdaşlarının verdiyi məlumata görə, ATV-də sürücülərin koordinatoru olan Məmmədov Mustafa Məmmədiyyə oğlu iş vaxtı yemək yediyi zaman nəfəs borusuna qida düşməsi nəticəsində vəfat edib. Şirkətin mətbuat xidmətinin rəhbəri Ozal İbrahimli APA-ya açıqlamasında bildirib ki, telekanalın Nəqliyyat şöbəsinin müdiri Mustafa Məmmədov dünən iş yerində dünyasını dəyişib:

"Təcili tibbi yardım çağırılıb və hüquq-mühafizə orqanlarına məlumat verilib. Hüquq-mühafizə orqanları gəlib. ATV kanalının bütün kollektivi adından ailəsinə və yaxınlarına baş sağlığı verirk".

Dünən ATV kanalının yeməkxanasında yediyi qidadan boğulan ATV əməkdaşı, Mustafa adlı sürücünün ölümü daha bir qəfil ölüm səbəbini gündəmə gətirdi.

Belə hallarda boğulan şəxsi xilas etmək üçün ilk saniyələr qiymətlidir.

Çox güman ki, nəfəs borusuna yemək düşən əməkdaş yerindən tərpənmədən sadəcə boğazını tutub və bir müddət onun boğulduğunun heç kim fərqində olmayıb.

Adətən belə halda insanın gözləri hədəqədən çıxır və o qızarır.

Ətrafdakılar onun ürəyinin tutduğunu və ya infarkt keçirdiyini güman edib. Təcili yardımı gözləmək isə boğulanın ölümü deməkdir. Və yaxud onun boğulduğunu görüblər, amma ona necə yardım etməyi heç kim bilməyib.

*"Medicina" qidanın nəfəs borusuna düşməsi səbəbindən boğulma zamanı tibbdə tövsiyə edilən ilk yardım metodunu təqdim edir.*

Daha çox uşaqlarda rast gəlinən bu böyüklərdə yemək yeyərkən ehtiyatsızlıqdan baş verir. Balıq, toyuq sümüyü, hər hansı qida qalığı və ya sadəcə yad cisim yemək borusuna yox, nəfəs borusuna düşür.

Bu hallarda ən yaxşı metod Heymlix texnikasıdır.

Bu metodu sözlərlə izah etmək çətin olduğundan, ən yaxşısı dəqiq izahı verilən videoya baxmaqdır.

# Koronavirus ana südü ilə ötürülmür

## Hamilələr arasında virusa yoluxma halları kifayət qədər mövcud olsa da, xəstəliyin gedişatı nisbətən yüngülləşib

**Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, həkim-ginekoloq Şəymən Qədimova aktiv COVID-19 virusunun ana südü və əmizdirmə vasitəsilə ötürülməsi halı ilə bağlı müsahibə verib.**

**- Şəymən xanım, hamilə qadınlar özlərində hansı əlamətlər olduqda COVİD-19 infeksiyasından şübhələnə bilər?**

- Hamilə qadınlar yüksək hərarət, ümumi halsızlıq, boğaz ağrıları, ürəkbulanma, dadbilmə və iybilmə qabiliyyətinin itməsi, bəzən isə ishal əlamətləri olduğu halda mütləq koronavirus testi verməlidirlər. Bəzən bu əlamətlərdən yalnız birinin olması koronavirusdan şübhələnməyə əsas verir. Əgər yüksək hərarət bir neçə gün davam edərsə və öskürək müşahidə olunarsa, o zaman hamilə qadın dərhal həkimə müraciət etməli və ya təcili yardım çağırmalıdır. Hamilələrdə koronavirusun əsas əlamətləri qrip infeksiyası kimi özünü göstərir.

Son vaxtlar koronavirusun klinik əlamətləri bir qədər dəyişib. Əvvəlki dövrlərlə müqayisədə son vaxtlar dadbilmə və iybilmə qabiliyyətinin müvəqqəti itirilməsi koronavirus zamanı demək olar ki, rast gəlinmir. Hamilələr arasında virusa yoluxma halları bu gün kifayət qədər mövcud olsa da, xəstəliyin gedişatı nisbətən yüngülləşib.

**- Koronavirus hamilə qadınlara necə təsir edir?**

- Hamilələrdə COVID-19 infeksiyasının klinik gedişi hamilə olmayanlardan kəskin fərqlənmir. Lakin hamilələrdə koronavirus daha ağır fəsadlara səbəb ola bilər. Çünki hamilə qadınların xəstəliyə müvaqiməti aşağı olur və hamilələr xəstəliyə daha tez tutulur və xəstəliyi daha ağır keçirir. Hamilələrin immun sistemi daha zəif olduğundan və hamilələrin bətnində döl inkişaf etdiyindən koronavirus həm hamilələr, həm də döllər üçün təhlükə hesab edilir.



***Şəymən Qədimova bildirib ki, ciftin qoruyucu funksiyası infeksiyanın anadan dölə keçməsinin müəyyən qədər qarşısını ala bilər***

**- COVID-19-a yoluxmuş hamilə qadınlar virus əleyhinə preparatlar qəbul edə bilərmi?**

- Hamiləlik zamanı antiviral (yəni virus əleyhinə) preparatların qəbulu əks-göstərişdir. Təəssüf ki, bəzən hamilə qadınlara koronavirus infeksiyasının müalicəsində səhvən venadaxili infuziya və antibiotiklər təyin edilir. Bu hallar qətiyyən yolverilməzdir. Bu preparatlar virusun müalicəsində təsirsiz olmaqla yanaşı, hətta xəstəliyin gedişatını da ağırlaşdırır. Virus əleyhinə preparatlar çox güclü yan təsirə malik olduğundan həm ana, həm də döl üçün çox təhlükəli hesab olunur.

Virusa yoluxmuş hamilələrin bol maye və həkim məsləhəti ilə dərmanlar qəbul etmələri məsləhət görülür.

**- Virus döl üçün təhlükə yarada bilərmi?**

- Bəzi araşdırmaların nəticələrinə görə, koronavirus infeksiyası şəxsin orqanizmində simptomsuz cərəyan edə bilər. Ola bilsin ki, anada COVID-19 infeksiyasının olması bətndaxili infeksiyaya gətirib çıxara bilir ki, bu da körpədə koronavirus infeksiyasının yaranmasına səbəb ola bilər. Eyni zamanda, koronavirus infeksiyasının anadan uşağa keçmə riski nisbətən aşağıdır. Çünki ciftin qoruyucu funksiyası infeksiyanın anadan dölə keçməsinin müəyyən qədər qarşısını ala bilər.

**- Koronavirusa yoluxmuş ana süd verə bilərmi?**

- Bugünədək, aktiv COVID-19 (infeksiyaya səbəb olan virus) virusunun ana südü və əmizdirmə vasitəsilə ötürülməsi halı aşkar edilməyib. Ona görə də koronavirusa yoluxmuş anaya süd vermək əks-göstəriş deyil.

# Vətəndaşların canı kağız arayışlardan qurtaracaq

## Yaxın günlərdə "mobil əhali" tətbiqi istifadəyə veriləcək

**Dünyanın mobil tətbiq bazarında sürətli artım, inkişaf müşahidə edilir. Düzdür, bu artım ölkələrə görə fərqlənir. Amma ümumi baxanda, artıq ölkələrin bu sahəyə ciddi diqqət etdiyinin şahidi oluruq. Əvvəllər kağız formasında görülən işlər artıq məcburən elektron formaya keçirilir. İnsanlar artıq xidmətləri də öz telefonlarında görmək, smartfonlar üzərindən həyata keçirmək istəyir. İnternetin, texnologiyanın inkişafı buna imkan verirsə, niyə də olmasın?**

Bu tendensiya Azərbaycanda da müşahidə edilsə də, mobil tətbiq bazarında bir "qıtlıq" var. Daha doğrusu, bir çox vacib xidmət təqdim edən qurumlar, şirkətlər mobil tətbiqini yeni-yeni formalaşdırır.

Ədliyyə Nazirliyinin İnformasiya-kommunikasiya texnologiyalar idarəsinin rəisi Ağakərim Səmədzadənin sözlərinə görə, elektron məhkəmənin yeni versiyası hazırlanır. Bununla bağlı işlərə başlanıldığını vurğulayan A.Səmədzadə bildirib ki, xidmətlər vətəndaşlara yaxın olmalıdır: "Bu sahədə bizim kifayət qədər uğurlarımız da var. Yaxın günlərdə "mobil əhali" tətbiqi istifadəyə veriləcək. Həmin tətbiq vasitəsilə vətəndaşlarımız arayışları ala biləcəklər".

**Multimedia İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin rəhbəri, İKT mütəxəssisi Osman Gündüz "Şərq"ə açıqlamasında yeniliyi dəyərləndirib:**

- Azərbaycanın rəqəmsal dünyası üçün əhəmiyyətli bir hadisə və olduqca faydalı bir işdir. Daha doğrusu, uzun illərdi ki, ölkədə elektron hökumət quruculuğu prosesi gedir. Xeyli sayda xidmətlər elektronlaşıb. Hətta başqa ölkələrdən fərqli olaraq bizdə iki elektron hökumət portalı eGov və MyGov fəaliyyət göstərir. Lakin dövlət qurumları vətəndaşla bağlı digər bir dövlət qurumunun səlahiyyətində olan hansısa məlumatları əldə etmək üçün ondan arayış tələb edir.

Əgər dövlət qurumları vətəndaşla bağlı hansısa məlumatları, arayışları bir-birindən onlayn formada əldə edə bilirlərsə, onda nəinki onun vətəndaşdan tələb edilməsi, ümumiyyətlə, qanunvericilikdə bu tip arayışların ləğv edilməsi daha doğru olardı. Bunun üçün isə bütün dövlət qurumlarının informasiya sistemlərinin inteqrasiyası başa çatdırılmalıdır.



*Osman Gündüz: "Artıq xeyli sayda arayışlar var ki, bunların ləğv edilməsi üçün yetərincə əsaslar yaranıb. 'Mobil əhali" tətbiqinin istifadəyə verilməsini uğurlu hesab edirəm"*

Rəqəmsallaşma prosesinə paralel olaraq qanunvericilik təkmilləşdirilməli və bürokratik əngəllər yaradan hüquqi məsələlər həll edilməlidir. Artıq rəqəmsallaşan informasiya xarakterli məlumatların vətəndaşdan tələb edilməsinin hüquqi əsasları aradan qaldırılmalıdır.

Düşünürəm ki, dövlət qurumları inteqrasiya olunduqca qanunvericilik monitorinq olunmalı və addım-addım bu tip dövlət xidmətləri-arayışlar ləğv edilməlidir. Artıq xeyli sayda arayışlar var ki, bunların ləğv edilməsi üçün yetərincə əsaslar yaranıb.

"Mobil əhali" tətbiqinin istifadəyə verilməsini uğurlu hesab edirəm, amma onlayn mühitdə bu tip əməliyyatları gerçəkləşdirmək üçün Ədliyyə Nazirliyi xeyli sayda hökumət datalarına sahib olmalıdır. Görünür ki, qurum digər əlaqəli dövlət qurumları ilə, eGov Mərkəzi ilə birgə, xidməti göstərmək üçün zəruri olan çoxsaylı dataları inteqrasiya edə biliblər.

Ədliyyə Nazirliyinin, qurumun İT komandasının və dövlət-özəl tərəfdaşlıq çərçivəsində çalışan "Crocusoft" şirkətinin rəqəmsal transformasiya sahəsindəki fəaliyyəti təqdirəlayiqdir. Bütün qurumlar artıq rəqəmsallaşmalıdır. Çünki sənədin elektron formada olması hüquqi statusu üçün yetərlidir. Bizdə isə bu proses çox yavaş gedir.

Məsələn, mygov.az saytından qeydiyyatdan keçməklə özümüzlə bağlı bütün informasiyaları əldə edə bilərik. Hətta yaşayış yerindən arayış lazımdırsa, onu bu saytdan pdf variantında əldə edə bilirik, lakin onu hər hansı bir quruma aparsanız, möhür olmadığı üçün qəbul etməyəcəklər.

**Şəymən Bayramova**



# 30 yaşında komaya düşdü

Oyananda 9 yaşı "oldu"

*(Əvvəli səh: 16-da)*

**Anasını gördükdə, kiçik uşaqlar kimi ona "anacan" deyə müraciət edib.**

Həyat yoldaşını ona təqdim etdikdə isə xeyli təəccüblənib, ardınca 11 aylıq körpəsi olduğu deyildikdə isə heyrətdən gözləri az qala hələqəsindən çıxacaqmış. "Daily Mail" ə danışan Anne "bu necə ola bilər? Mən 9, ya da 10 yaşındayam!" deyib. Dostları ona həyatı, evi, həyat yoldaşı, balaca qızı barədə danışanda da Anne uzun müddət onlara inanmayıb, onu aldatdıqlarını düşünüb. "Anlamadığım bir həyatın içindəydim və bu, çox qorxulu, ürküdücü idi" deyən Anne bir müddət ətrafdakılardan gizlənməyə çalışıb, qəribə davranışları həyat yoldaşı ilə aralarında soyuqluq yaradıb.

"Bu uşağı mən necə böyüdəcəyəm?" deyə özünə sual verirmiş. Anne toy şəkillərini axtarıb, onunla bir evdə yaşayan adamın həqiqətən onun həyat yoldaşı olub-olmadığına inanmaq istəyib. Toy şəkillərini tapmadıqda daha da şübhələnməyə başlayıb. Əməliyyat zamanı yaxalandığı miqren səbəbiylə 3 gün komada qalan və güclü yaddaş itkisiylə qarşılaşan Anne anasından aldığı cüzi bilgilər sayəsində keçmiş həyatını parça-parça qurаşdırmağa başlayıb, nəhayət, qəribə həyat hekayəsini bir kitab vasitəsilə anlatmağa nail olub.

**Məlahət Rzayeva**

# 12 ildən sonra Kanadadan Türkiyəyə qayıtdı!

## "Dünyanın ən zəngin insanı mənəm"

**Doğulduğunuz və böyüdüyünüz torpaqdan fərqli bir ölkəyə köçmək çox çətin bir qərardır. Fərqli bir mədəniyyətdə və coğrafiyada yaşamaq həyəcanlı olsa da, tənhalıq hissi bəzən adamı hər şeydən keçməyə vadar edir. "Şərq" türk mediasına istinadən xəbər verir ki, 12 il qaldığı Kanadadan Türkiyəyə qayıdan Yaprak Gürdal "Yalnız qalmaqdan yoruldum" deyən və Türkiyədə özünə yenidən həyat quranlardandır.**

20 ildən çox Türkiyə və Kanadada korporativ şirkətlərdə menecer kimi çalışan Yaprak Gürdal çalışdığı müddətdə hər fürsətdə yeni coğrafiyalar kəşf edib. Gürdal hazırda tam zamanlı səyahət yazıçısıdır. Fərqli mədəniyyətlərə hər zaman maraq göstərib: "Mənim üçün Kanada ingiliscə danışa biləcəyim və mühacir kimi müraciət edə biləcəyim ən yaxşı alternativ ölkə idi. 2000-ci ildə immiqrasiya üçün müraciət etdim. 2002-ci ildə immiqrant kimi qəbul olunanda orada yeni həyatıma başladım".

Hər şeyin qaydasında olduğunu, xoşagəlməz sürprizlərlə qarşılaşmadığını, həyatın sakit olduğunu, təbiətin qorunduğunu və təhsil sistemini əzbər öyrənməyə əsaslanmadığını bildirən Yaprak Gürdal, köç macərasını hər kəslə bölüşmək üçün kitab da yazıb. Kitablarında çatdırdığı bütün məlumatların yaşadıqlarına əsaslandığını vurğulayan Gürdal, "Bəzi nöqsanlar ola bilər, amma həddindən artıq və mübaliğə yoxdur" deyir.

İstənilən ölkəyə köçməyin insanın həyatda verə biləcəyi ən çətin qərar olduğunu ifadə edən Yaprak Gürdal, fərqli mədəniyyətə uyğunlaşmağın çətinliyinə toxunaraq, "Dostluq edirsən, amma həqiqətən də yaxın dostluqlar qurmaqda çətinlik çəkirsən. Karyeranızda qaldığınız yerdən davam edə bilməzsiniz, gündəlik iş rejiminiz alt-üst olacaq. Ancaq bu o demək deyil ki, siz bu çətinlikləri dəf etməyəcəksiniz və ya başqa ölkədə xoşbəxt olmayacaqsınız. Sadəcə, qətiyyətli və səbirli olmaq və bu prosesi keçid dövrü kimi görmək lazımdır", - deyə o təklif edib.

Geri dönmə qərarından danışan Yaprak Gürdal bunları deyir: "Artıq bütün bunların öhdəsindən gəldim, yeni həyatımı relslərə qoydum. Artıq ölkəmdə yaşamağa üstünlük verdiyim üçün geri qayıtdım. Mən də tənhalıqdan bezmişəm və ailə həsrətini çox hiss etmişəm".

Kanadada tənhalıq haqqında, "90 yaşlı qonşumun 3 uşağı var idi, amma bir dəfə də olsun ziyarətə gələn görmədim. Bundan daha tənhalıq ola bilərmi?".

Yaprak Gürdal sözlərinə belə davam edir: "Kanadada şəxsi həyat hər şeydən önəmlidir və onlar heç kimə çox da yaxınlaşmırlar. Kanadalılar tanıdığım ən mehriban insanlardır, lakin bizim kimi dostunun yanına "qapıdan dönmək" məcburiyyətində deyillər.



Onların bütün həyatları planlaşdırılıb, bir növ qabaqcadan müəyyənləşdirib görüşürlər. Bütün qapıları bağlayıb geri dönəcəyimi bildiyim üçün qərarı vermək ayrılmaqdan daha çətin idi. Yeni bir ölkədə çətinliklərlə yeni bir həyata başladıqdan sonra bu asan deyil. Bu həyatı əlinin tərsi ilə itələyib geri qayıtmaq... Bununla belə, qərarımdan heç vaxt peşman olmamışam.

Bu səyahətlər mənə qərarsızlıqdan qurtulmağa, rahat zonamdan çıxmağa və çevik olmağa imkan verir. Hazırda dünyanın müxtəlif yerlərində çoxlu dostlarım, özümü ailə kimi hiss etdiyim insanlar var" deyə əlavə edir.

İstədiyiniz qədər pulunuz olsa belə, bu cür sərvətin pulla alına bilməyəcəyini vurğulayan Gürdal, müxtəlif mədəniyyətlərdən insanları toplayıb dünyanın ən zəngin insanı olduğunu sözlərinə əlavə edir.

**Turan**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olu-

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 3069

# 90 yaşlı gəlin və 77 yaşlı bəy...

## Xəstəxanada görüşdülər, bir-birini bəyənib evləndilər



**Səhhətləri ilə bağlı Türkiyənin Avcılar rayonundakı sağlamlıq mərkəzinə üz tutan və burada görüşən 90 yaşlı Həbibə Özdemir və 77 yaşlı Məhərrəm Ərdoğan nikah masasına oturublar.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, Həbibə nənə əvvəl evli olmayıb. İndi o, 4 uşaq atası, həyat yoldaşını itirən 77 yaşlı təqaüdçü Məhərrəm Ərdoğanla ömrünün qalan hissəsini birgə yaşamaq qərarına gəlib.

Cütlük evlənmək istədiklərini bildirərək Avcılar Bələdiyyəsinə müraciət edib və Avcılar Bələdiyyə başçısı Turan Hançerlidən toy mərasimi istəyiblər. Cihangir Ailə Sağlamlığı Mərkəzi səlahiyyətliləri nikah masasına oturan cütlüyün nikahına şahidlik edib. Avcılar Bələdiyyə başçısı Turan Hançerli nikah şahədətnaməsini 90 yaşlı gəlin Həbibə Özdəmirə verib, yaşlı cütlük üçün toy təşkil edib.

Həbibə Özdemir evlilik təklifinin qarşı tərəfdən gəldiyini ifadə edərək, "Bir-birimizi sevdik, bəyəndim, oldu" deyib.

Avcılar Bələdiyyə başçısı Hançerli isə "Bu gün çox özəl bir toy etdik, çox həyəcanlıdırlar. Onların həyəcanı bizə də sirayət etdi" deyə bildirib.

**Turan**







# 30 yaşında komaya düşdü

## Oyananda 9 yaşı "oldu"

**Avstraliyanın Sidney şəhərinin şimal sahilindəki Mosman qəsəbəsində böyümüş Anne Hovellin həyatı Jason Bournenin qəribə həyat hekayəsinin ekranlaşdırıldığı "The Bourne Identity" Hollivud filmini xatırladır.**

Gənc qadın həyatını "Unutduğum hər şey" adlı yeni kitabında anladıb. "Şərq" "Milliyet.com.tr"yə istinadən bildirir ki, Anne ailə həyatı qurduqdan qısa müddət sonra başındakı ağrılardan şikayət etməyə başlayıb. Qadına miqren diaqnozu qoyulub. Hamiləliyi dövründə də ağrılar onu tərk etməyib. Doğuşdan sadəcə 2 gün əvvəlsə Anne iflic keçirib. Həkimlər ona əməliyyat olunmazsa, uzaqbaşı, 5 il həyatda qala biləcəyini deyiblər. Anne əməliyyat olunmağa razılaşıb. Əlbəttə, başına nələr gələcəyini bilmədən. 12 saat sürən əməliyyat sonrası, nəhayət, oyandığında Anne gənclik həyatıyla bağlı heç nəyi - evlənməyini, hamilə olduğu-



nu, həyatındakı insanların çoxunu xatırlamırdı artıq. O yalnız uşaqlıq illəriylə bağlı bəzi hadisələri və uşaq ikən Sidneyin Balmoral sahilində necə üzdüyünü xatırlayıb. Anne əməliyyat olunduğunda 30 yaşı vardı, oyandığında isə özünü 9 yaşlı qız kimi hiss etməyə başlayıb. Anne hətta bir qız övladı olduğunu da unudub. Komadan oyanan qadın hətta özünü də tanımayıb. Ona elə gəlirdi ki, böyük bir bədənin içində balaca 9 yaşlı qızcığaz yaşayır.

*(Davamı səh: 15-də)*

**Məlahət Rzayeva**

# Yapon alim sübut etdi

## Oruc tutanlar xəstəliklərə tez qalib gəlirlər



**Nobel mükafatına layiq görülən yapon alimi Yoşinori Ohsumi orucun insan sağlamlığına təsirini elmi olaraq sübut edib. Bakupost.az xəbər verir ki, Ohsumi orucun insanları parkinson, diabet və xərçəngdən qoruduğunu deyib:**

**"3 günlük orucdan sonra orqanizmin immun mexanizmi yeni ağ qan hüceyrələrinin əmələ gəlməsini təmin edir və immun sistemi tamamilə yenilənir. Bu baxımdan müsəlmanların orucu yenilənmə proqramı kimi qarşımıza çıxır.**

**Oruc insanları Parkinson, diabet və xərçəngdən qoruyur, onlara daha tez qalib gəlir. Deyə biləri ki, oruc İslamda xəstəlikləri aradan qaldıran bir sağlamlıq proqramıdır".**

# Madriddə qoyunlar şəhərə enib



**İspaniyanın paytaxtı Madriddə 1994-cü ildən bəri təşkil edilən və orta əsrlərə aid olan "Trashumancia festivalı" çərçivəsində şəhərin mərkəzində mindən çox qoyun keçib. "Şərq" xarici mediaya istinadən xəbər verir ki, 29-cu "Trashumancia festivalı" çərçivəsində Madridin simvolik küçələrində 1200-dən çox qoyun və 200 keçi yürüş edib.**

**Səhər saatlarından insanlar qoyunları görmək üçün "Casa de Campo" meydanına toplaşıb.**

**Böyüklər bol-bol şəkil çəkdirib, festivalda ən çox əylənənlər isə uşaqlar olub.**

**Yeddi yaşlı uşağı ilə festivala gələn Xavyer: "Keçən il o qədər xoşumuza gəldi ki, bu gün də təkrarladıq. Əvvəlcə uşaq bir az qorxdu, amma sonra sığal çəkdi, əzizlədi".**

**Turan**



# Bu adaya gedən qayıtmır

## "Qatil tayfa" üçün feysbukda qrup yaradıblar

**Şimal Sentinel adasında yaşayan və adalarına yaxınlaşdıqda hər kəsi öldürən qəbilə "qatil icması" kimi tanınır. Qəbilənin aqressiv münasibəti hamını qorxuya salıb, 3 nəfəri öldürsələr də, qətlə görə məsuliyyətə cəlb olunmamaları çoxlarının hiddətinə səbəb olub. İş o yerə çatıb ki, hətta bu adada olanları məhv etmək üçün feysbuk qrupu da yaradılıb.**



"Şərq" xarici mediaya istinadən xəbər verir ki, Taylandın cənub-şərq sahillərində yerləşən Şimali Sentinel adası, yad insanlarla hər hansı əlaqəni rədd edən və oraya enmək istəyən hər kəsə şiddətlə hücum edən "daş dövrü" adlı qəbilənin yaşadığı yerdir. Təxminən 70 ildir xarici aləmdən təcrid olunmuş bu tayfanın çox maraqlı tarixçəsi var. Saylarının 200-dən az olduğu iddia edilən adanın sakinləri heç bir gəminin ora yaxınlaşmasına icazə vermirlər və onlara oxlar yağdırırlar. Sentinellərin yer üzündə neolitdən əvvəl qalan sonuncu tayfa olduğu deyilir. Adanın ətrafındakı təxminən 9 km-lik qadağan zonası Hindistan donanması tərəfindən qorunur və kənar şəxslərin adaya enməsinə icazə verilmir.

İki balıqçının qayıqlarında yataraq adaya gəlib çıxması və qəbilə tərəfindən öldürülməsi adaların şöhrətini artırıb. Bu bədbəxt insanlardan ikisi balıqçılar 48 yaşlı Sunder Raj və 52 yaşlı Pandit Tivari idi. 2006-cı ildə onlar qayıqlarında yuxuya də oturmuş vəziyyətdə tapılıb. Oxatanların helikopterə hücumu səbəbindən cəsədləri çıxarmaq cəhdləri yarımçıq qalıb.

Özünü "macəraçı" kimi təqdim edən missioner Con Allen Çau qəbiləni xristianlığı qəbul etdirmək məqsədi ilə icazəsiz Şimali Sentinel adasına daxil olub. Xristian missioner Con Allen Çau adaya qeyri-qanuni yollarla gedib və 2018-ci ildə qəbilə tərəfindən öldürülüb. Məlumatlara görə, ona atılan ilk ox cibindəki İncilə dəyib, lakin adaya yaxınlaşmağa davam edərkən adalılar tərəfindən vəhşicəsinə öldürülüb. 2018-ci il noyabrın 17-də balıqçılar sahilə yaxınlaşdıqda qəbilənin bir cəsədi sürüyərək sahilə basdırdığını görüblər. Geyimindən və cəsədin siluetindən bu şəxsin Çau olduğu qənaətinə gəliblər. Çaunun ölümü rəsmən təsdiqlənsə də polis missionerin cəsədini götürməyin mümkün olmadığını və qəbiləyə qarşı heç bir ittiham irəli sürülməyəcəyini söyləyib.

gedib adaya gəlib çıxıblar. Onlar yerli qəbilə tərəfindən hücuma məruz qalıb və öldürülüb.

Balıqçıların qəbilə tərəfindən öldürüldüyü ortaya çıxanda onların cəsədlərinin adalılar tərəfindən yandırılaraq yeyildiyi düşünülürdü. Lakin çox keçmədən balıqçıların cəsədləri dənizə baxan dirəklərin üzərin-

**Turan**

# "Qarışqa üzü" trend oldu



**Bir texnologiya şirkətinin hazırladığı fotoqrafiya yarışmasında, "qarışqa üzü" şəkli trend olub.**

Litvalı təbiət fotoqrafı Eugenijus Kavaliauskas, qarışqa şəkli ilə yarışmaya qatılıb.

Mikroskopik dərəcədə çəkilən qarışqanın üzünə aid həmin şəkil birinci yerə layiq görülüb.

Qorxu filmlərini xatırladan görüntü, sosial mediada böyük marağa səbəb olub.

**Nihat**

# Tanınmış aktrisa İtaliyada ailə qurdu



**Aktrisa İpek Filiz Yazıcı müğənni Ufuk Beydemirlə ailə qurub.**

Cütlük Romada nikah masasına əyləşib. Aktrisa özəl günündən olan fotoları sosial media hesabında paylaşıb.

*Qeyd edək ki, İpek sonuncu dəfə "İçimizdeki ateş" serialında rol alır.*